

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

5 iyul 2025-ci il, şənbə
№ 114 (6941)
Qiymәti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


# 17-ci Zirvə...

## Xankəndidən verilən mesajlar




Bax səh. 3

# ABŞ - Azərbaycan: Dost və tərəfdaş ölkələr...

Bax səh. 5

# Qarabağ dünyanı heyrətləndirir



Bax səh. 4

## ECO çərçivəsində görüşlər

Bax səh. 2

## Milli Məclisin iclasında... "Media haqqında" qanuna təklif edilən dəyişikliklər birinci oxunuşda qəbul olunub

Bax səh. 5

## Sahibkarlığın inkişafı üçün...

Bax səh. 6

## Telefon diplomatiyası... Bir saatlıq danışıqda nələr müzakirə olundu?

Bax səh. 7



## 4,3 milyon avro nəyə xərclənib?

Bax səh. 7



## Ermənistanda qeyri-stabil vəziyyət

Bax səh. 6

# ECO çərçivəsində görüşlər

## “Qardaş Türkiyə hər zaman və hər bir məsələdə qardaş Azərbaycanın yanındadır”



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 4-də Xankəndidə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb.

AZƏRTAC xəbər verir ki, Rəcəb Tayyib Ərdoğan Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünün yüksək səviyyədə keçirildiyini vurğuladı.

Dövlətimizin başçısı Zirvə görüşündə iştirak etdiyinə görə Türkiyə Prezidentinə minnətdarlığını bildirdi.

Söhbət zamanı qardaşlıq və strateji müttəfiqlik münasibətlərimizin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi.

Rəcəb Tayyib Ərdoğan bir daha vurğuladı ki, qardaş Türkiyə hər zaman və hər bir məsələdə qardaş Azərbaycanın yanındadır. Türkiyə Prezidenti qeyd etdi ki, bu, həmişə belə olub və bundan sonra da belə olacaqdır.

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanın bu sözlərinə görə təşəkkürünü bildirərək öz növbəsində vurğuladı ki, Azərbaycan da həm sevincli, həm də kədərli günlərdə həmişə qardaş Türkiyənin yanındadır.

Azərbaycan və Türkiyə prezidentləri, həmçinin əməkdaşlığımızın perspektivlərinə və qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi apardılar.

## Ölkəmizin səyləri yüksək qiymətləndirilir



İyulun 4-də Xankəndidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə görüşüb.

AZƏRTAC xəbər verir ki, Pakistanın Baş naziri İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünün yüksək səviyyədə təşkil edildiyini deyərək, Təşkilatın daha da güclənməsi istiqamətində Azərbaycanın səylərini yüksək qiymətləndirdi.

Məhəmməd Şahbaz Şərif ölkələrimiz arasında qardaşlıq əlaqələrinin daha da inkişaf etdiyini vurğuladı və bu ilin mayında Laçın şəhərinə səfərini, Azərbaycan-Türkiyə-Pakistan formatında keçirilmiş üçtərəfli görüşü məmnunluqla xatırladı. Baş nazir Qarabağda, o cümlədən Xankəndi şəhərində aparılan genişmiqyaslı bərpa-quruculuq işlərini qeyd etdi. Azərbaycanla Pakistan arasında ikitərəfli əlaqələrin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, ticarət, sərmayələr, enerji və digər istiqamətlərdə uğurla inkişaf etdiyini vurğuladı.

Dövlətimizin başçısı dəvəti qəbul edib bu Zirvə görüşündə iştirakına görə Pakistanın Baş nazirinə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev də öz növbəsində Pakistanın Baş nazirinin Laçına səfərini, üçtərəfli formatda aparılmış müzakirələri məmnunluqla xatırladı.

Söhbət zamanı ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məmnunluqla qeyd olundu, regional məsələlərə dair fikir mübadiləsi aparıldı.




## İran-Azərbaycan əlaqələrində yeni səhifə...

İyulun 4-də Xankəndidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın görüşü olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçıları söhbət zamanı Azərbaycanla İranın dost, qonşu, qardaş ölkələr olduqlarını vurğulayaraq, ölkələrimiz arasında mədəni, etiqad, ənənələr, etnik baxımdan qohumluq və qardaşlıq əlaqələrinin mövcudluğunu qeyd etdilər.

Dövlətimizin başçısı dəvəti qəbul edib İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündə iştirakına görə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana təşəkkürünü bildirdi, onun bu səfərinin və keçirilən görüşün Azərbaycan-İran ikitərəfli əlaqələrinin, həmçinin İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq məsələlərinin müzakirəsi baxımından əhəmiyyətli olduğunu dedi.



Məsud Pezeşkianın bu ilin aprelində ölkəmizə rəsmi səfərinin ikitərəfli əlaqələrimizdə yeni səhifə açdığını vurğulayan Prezident İlham Əliyev həmin səfər zamanı müzakirə olunan mövzuların həyata keçirilməsi üçün hökumətlərarası komissiyanın rəhbərləri və aidiyyəti dövlət qurumları tərəfindən ardıcıl surətdə işlərin aparıldığını qeyd etdi.

Dövlətimizin başçısı İsraillə İran arasında qarşıdurmanın baş verməsindən dərhal sonra İrana qarşı olan bu hərəkətlərin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən qınanıldığını bildirdi. Prezident İlham Əliyev bu qarşıdurmada İranın rəsmi və mülki şəxslərinin həlak olması ilə əlaqədar bir daha Azərbaycan tərəfinin İran xalqına başsağlığını çatdırdı, Azərbaycan dövlətinin və xalqının İran dövləti və xalqı ilə həmrəyliyini, dəstəyini ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycanın həmişə haqq-ədalətin tərəfdarı olduğunu vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, müsəlman ölkələri, o cümlədən qonşu dövlətlər ilə əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən biridir.

İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün Azərbaycanda, Xankəndi şəhərində təşkil edilməsini və gələn il İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün ölkəmizdə keçiriləcəyini vurğulayan dövlətimizin başçısı bütün bunları İslam dünyası tərəfindən ölkəmizə olan etimadın və hörmətin növbəti nümunəsi kimi qiymətləndirdi.

İran İslam Respublikasının Prezidenti də İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün yüksək səviyyədə təşkilinə görə təbriklərini çatdırdı.

Azərbaycana rəsmi səfərini və keçirilmiş görüşləri məmnunluqla xatırlayan Məsud Pezeşkian səfərin nəticəsi olaraq Azərbaycan-İran əlaqələrində yeni səhifənin açıldığını vurğuladı, bu xüsusda, artıq Bakı ilə Tehran, Bakı ilə Təbriz arasında təyyarə reyslərinin artırılmasını, Ağbənd-Kəlalə avtomobil yolu körpüsünün tikintisi istiqamətində işlərin aparılmasını qeyd etdi və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxundu.

İran Prezidenti İsraillə baş vermiş qarşıdurma zamanı Azərbaycanın göstərdiyi dəstəyə və həmrəyliyə görə minnətdarlığını bildirdi.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərə, həmçinin ECO çərçivəsində əlaqələrin genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparıldı.

## Münasibətlərimiz strateji müstəvidə inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 4-də Xankəndidə Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaq Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Məhəmməd bin Zayed Al Nəhyana çatdırmağı xahiş etdi.

Sultan Əhməd Əl-Cabir İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi şəhərində keçirilən 17-ci Zirvə Görüşünün işinə uğurlar arzuladı. Qonaq Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işlərinin, həmçinin bu ərazilərin təbiətinin onda böyük təəssürat hissi oyatdığını dedi.

Görüşdə Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin hər iki ölkənin liderlərinin baxışlarına uyğun olaraq məhz strateji müstəvidə inkişafından məmnunluq ifadə edildi.

Azərbaycan ilə Birləşmiş Ərəb Əmirliklərinin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəklədiyi vurğulandı.

Söhbət zamanı “Masdar” şirkətinin Azərbaycanda fəaliyyəti, bərpaolunan enerji sahəsində əməkdaşlıq və strateji fəaliyyət proqramları, bu istiqamətdə gələcək layihələrə dair fikir mübadiləsi aparıldı.

Görüşdə, həmçinin enerji, turizm, humanitar və mədəniyyət sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu.



***

**İyulun 4-də Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının, nümayəndə heyətlərinin rəhbərlərinin şərəfinə rəsmi nahar verilib.**

# 17-ci Zirvə...
## Xankəndidən verilən mesajlar

**İyulun 4-də Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü keçirilir.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşılayıb.**

**Sonra birgə foto çəkdirildi.**

## Şuşa şəhəri 2026-cı il "ECO-nun Turizm paytaxtı" elan edildi!









## İlham Əliyev: Qədim Azərbaycan torpağı olan Qarabağa, Xankəndiyə xoş gəlmisiniz!

Prezident İlham Əliyev Zirvə görüşündə çıxış edib.

Dövlət və hökumət başçılarını, Zirvə görüşünün iştirakçılarını salamlayan dövlətimizin başçısı ölkəmizin artıq üçüncü dəfədir ki, ECO-nun Zirvə görüşünə ev sahibliyi etdiyini xatırladıb: "İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak etmək üçün qədim Azərbaycan torpağı olan Qarabağa, Xankəndiyə xoş gəlmisiniz.

Qazaxıstana ECO-ya uğurlu sədrliyi münasibətilə təşəkkürümü bildirirəm.

Azərbaycan artıq üçüncü dəfədir ki, ECO-nun Zirvə görüşünə ev sahibliyi edir. Əvvəlki iki Zirvə görüşü 2006-cı və 2012-ci illərdə paytaxt Bakıda keçirilmişdir.

Bugünkü Zirvə görüşünün Qarabağda, Xankəndidə təşkil edilməsinin xüsusi mənası var. Ermənistanın işğalından azad edilmiş torpaqlarımızda artıq bir neçə mühüm beynəlxalq tədbir keçirilmişdir. Şuşada 2023-cü ildə ECO-nun Nazirlər Şurasını, 2024-cü ildə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünü və bu ilin may ayında Laçında Azərbaycan, Türkiyə və Pakistan rəhbərlərinin üçtərəfli Zirvə görüşünü qeyd etmək istərdim.

Bu gün isə ECO-nun Zirvə görüşü Xankəndidə, yeni inşa edilmiş Konqres Mərkəzində keçirilir.

İşğaldan azad edilmiş bütün Qarabağ və Şərqi Zəngəzurda hazırda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır.

Ermənistan Azərbaycan ərazilərinin təxminən 20 faizini 30 ilə yaxın işğal altında saxlamış, etnik təmizləmə həyata keçirmiş, bir milyondan artıq soydaşımızı öz dədə-baba torpağından didərgin salmışdır.

Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmamışdır. Dəfələrlə Ermənistana və onun arxasında duran dövlətlərə bildirirdik ki, əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz öz ərazi bütövlüyümüzü hərbi yolla bərpa edəcəyik. Əfsuslar olsun ki, Ermənistan və onun havadarları bizim bu xəbərdarlığımızı ciddi qəbul etməyiblər. Nəticədə peşman olublar.

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ermənistanı döyüş meydanında darmadağın edərək 300-dən çox şəhər və kəndi azad etdi. Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktı imzalamağa məcbur oldu.

İşğal dövründə Ermənistan şəhər və kəndlərimizi, mədəni və dini abidələrimizi yer üzündən silmişdir. 67 məsciddən 65-i Ermənistan tərəfindən yerləyeksan edilib, qalan ikisi isə ciddi zərər görüb, donuz və inək tövləsi kimi istifadə olunub. Bu, İslam dininə və dünya müsəlmanlarına qarşı hörmətsizlik və təhqir idi.

Qəbiristanlıqlar da vandalizmə məruz qalıb, dağıdılıb, qəbir daşları talanaraq Ermənistana aparılıb.

Dövlət qurumlarından ibarət komissiya öz işinə xarici ekspertləri cəlb edərək, beynəlxalq təcrübədən yararlanmaqla işğal nəticəsində Azərbaycana vurulmuş zərəri təxminən 150 milyard ABŞ dolları məbləğində qiymətləndirmişdir.

Ermənistan torpaqlarımızda bir milyondan çox mina basdırıb. Vətən müharibəsindən bu günə qədər 400-ə yaxın soydaşımız mina partlaması nəticəsində həlak olub və ya ağır yaralanıb.

İndi Azərbaycan Ermənistanın xarabazara çevirdiyi torpaqlarda yeni şəhərlər və kəndlər inşa edir. "Böyük Qayıdış" proqramı icra edilir. Bu günə qədər 16 şəhər və kəndə keçmiş məcburi köçkünlərin qayıdışını təmin etmişik. Hazırda azad edilmiş ərazilərdə 50 mindən çox insan yaşayır, çalışır və təhsil alır.

Ermənistandan deportasiya olunmuş Qərbi azərbaycanlıların hüquqlarının təmin olunması da böyük əhəmiyyət kəsb edir. Keçən ay İslam Əməkdaşlıq Təşkilatının İstanbulda keçirilmiş Nazirlər Şurasında Ermənistandan zorla didərgin salınmış azərbaycanlıların qayıdış hüququna dəstək ifadə edən qətnamənin bütün 57 üzv ölkənin yekdil qərarı ilə qəbul olunmasını yüksək qiymətləndiririk.

Bu qətnamə ilə yanaşı, Nazirlər Şurasının yekunlarına dair "İstanbul Bəyannaməsi"ndə indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların geri qayıdış hüququ təsdiqlənir və Ermənistanın Qərbi Azərbaycan İcması ilə dialoqu rədd etməsi qınanılır.

Qərbi azərbaycanlıların Ermənistandakı öz dədə-baba torpağına sülh yolu ilə qayıdışının təmin edilməsi sahəsində səylər bundan sonra da davam etdiriləcək.

Xanımlar və cənablar, Azərbaycan ECO-nun işində həmişə fəal iştirak etmişdir. ECO-ya üzv ölkələrlə əlaqələrimiz uğurla inkişaf edir.

Keçən il tarixdə ilk dəfə olaraq ECO məkanında COP29 konfransı keçirilmişdir. Bu konfransda 197 ölkə, 70 dövlət və hökumət başçısı iştirak etmiş, 77 min şəxs qeydiyyatdan keçmişdir.

Konfransda əldə edilmiş əsas nailiyyətlər inkişaf etməkdə olan ölkələrə maliyyə yardımının 100 milyarddan 300 milyard ABŞ dollarına qədər artırılması, İtki və Zərər Fondunun işlək vəziyyətə gətirilməsi və karbon bazarları barədə razılaşmalardan ibarət olmuşdur.

Azərbaycanın təşəbbüsü ilə bu il ilk dəfə ECO Həftəsi keçirilir. Şuşada ECO-nun Biznes Forumu, Ağdamda Gənclər Forumu, Laçında isə Qadınlar Forumu təşkil edilmişdir. Forumda iştirak etmiş nümayəndələr bu gün burada görülmüş işlərlə bağlı məruzələr təqdim edəcəklər.

ECO-nun Azərbaycanda yerləşəcək Tədqiqat Mərkəzinin və Təmiz Enerji Mərkəzinin fəaliyyətə başlamasının təmin olunması istiqamətində işlər davam edir.

2026-cı ilin Şuşa şəhərinin "ECO-nun Turizm paytaxtı" elan edilməsinə görə təşəkkürümü bildirirəm.

İqtisadi sahədə əməkdaşlığı dərinləşdirmək üçün bu gün müzakirə ediləcək məsələlər xüsusi əhəmiyyət kəsb edir. Azərbaycana gəldikdə, bizim ölkəmizdə çox müsbət sərmayə iqlimi vardır. Son 20 il ərzində Azərbaycan iqtisadiyyatına 350 milyard ABŞ dollarına yaxın sərmaye qoyulmuşdur ki, bunun da yarısı xarici sərmayədir.

Bu gün Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir və müxtəlif qaz boru kəmərləri vasitəsilə 12 ölkəyə təbii qaz ixrac edir. Bu göstəriciyə görə biz dünyada ön sıralardayıq.

Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir və ECO-ya üzv ölkələrin əksəriyyəti bu dəhlizlərdən istifadə edir.

Əziz dostlar, əminəm ki, bugünkü müzakirələrimiz səmərəli olacaq və ölkələrimiz arasında əməkdaşlığın daha da inkişafına öz müsbət töhfəsini verəcək".

## Şavkat Mirziyoyev: Əsl qardaşlar kimi...

Sonra İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə görüşünün sədri, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev çıxış edib. Özbəkistan Prezidenti bildirib ki, əsl qardaşlar kimi biz bu bölgənin sülh və inkişaf məkanına çevrilməsindən çox şadıq: "Mən ECO Zirvə görüşünü bu torpaqda yüksək səviyyədə təşkil etdiyinə və səmimi qonaqpərvərlik göstərdiyinə görə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevə ən dərin təşəkkürümü bildirmək istəyirəm".

Uzun fasilədən sonra Əfqanıstanın keçid hökumətinin Zirvə görüşündə öz nümayəndə heyəti ilə iştirak etməsindən məmnunluğunu bildirən Prezident Şavkat Mirziyoyev vurğulayıb ki, Əfqanıstanı təşkilatın ayrılmaz hissəsi, geniş iqtisadi əməkdaşlığın və regional nəqliyyat proseslərinin mühüm üzvü kimi görürük və onu öz tərəfimizdən geniş şəkildə dəstəkləyirik.

"Hörmətli görüş iştirakçıları, bu tədbir çətin anlarda baş tutur və dünya ictimaiyyəti mühüm mərhələlərdən keçir. Bu, tam aydındır. Çünki münaqişə və mübahisələrin əksər hissəsi təşkilatımızın ərazisində baş verməkdədir. Son aylarda Cənubi Asiya və Orta Şərqdə baş verən hadisələr hamımızda böyük narahatlıq doğurdu. Beynəlxalq hüquq və qlobal təhlükəsizlik təsisatlarının sarsılması dialoq və əməkdaşlıq imkanlarını daraldır, güc və zorakılığa yol açır. Xüsusən də təşkilatımızın üzvü olan İran İslam Respublikasına qarşı hərbi əməliyyatlar öz növbəsində bütün regionu müharibəyə sürükləmək və böyükmiqyaslı ətraf mühit fəlakətinin baş verməsi təhlükəsini yaratdı. Beləliklə, biz İran ilə İsrail arasında əldə olunmuş atəşkəs razılaşmasını dəstəkləyirik. Bu qərarı regionda gərginliyin azaldılması və sabitliyin bərpası istiqamətində atılan mühüm addım hesab edirik. İnanırıq ki, bu razılaşma diplomatik və konstruktiv danışıqlarla bütün məsələlərin həlli üçün möhkəm əsas yaradacaq. Nəzərə alsaq ki, kütləvi qırğın silahlarının yayılmaması beynəlxalq təhlükəsizliyin ən təxirəsalınmaz məsələlərindən birinə çevrilir, biz bir daha nüvə silahından azad zonaların coğrafiyasını genişləndirmək üçün qlobal ictimaiyyətə çağırış edirik. Qeyd edilməlidir ki, Orta Şərqdə dayanıqlı sülh və sabitlik İsrail-Fələstin münaqişəsinin ədalətli və düzgün həlli olmadan əldə edilə bilməz. Biz beynəlxalq ictimaiyyəti Qəzza zolağında hərbi əməliyyatların dayandırılmasına, aclıq və qeyri-insani şəraitdən əziyyət çəkənlərə humanitar yardımın göstərilməsində bütün maneələrin aradan qaldırılmasına və müstəqil Fələstin dövlətinin BMT-nin qətnamələrinə uyğun qurulmasına öz tərəfimizdən çağırırıq" - deyən Özbəkistan Prezidenti Cülh və inkişafın bünövrəsinin iqtisadi əməkdaşlığa söykəndiyini vurğulayıb.

Prezident Şavkat Mirziyoyev təşkilatın orta və uzunmüddətli inkişaf prioritetlərini aydın şəkildə müəyyən etmək məqsədilə "İqtisadi əməkdaşlığın strateji məqsədləri 2035" adlı konsepsiyanı qəbul etməyin zəruriliyindən söz açıb: "Ticarət, sərmayə, nəqliyyat, enerji, sənaye, kənd təsərrüfatı, ekologiya, turizm və təhsil kimi ənənəvi sahələrlə yanaşı, biz, həmçinin innovasiya, süni intellekt və rəqəmsal texnologiyalar üzrə əməkdaşlığın gücləndirilməsinə xüsusi diqqət yetirməliyik. Əmtəə və xidmətlərdə ticarətin asanlaşdırılması, texniki və qeyri-tarif maneələrin tədricən aradan qaldırılması və elektron ticarətin inkişafı xüsusilə vacibdir". Qarşılıqlı ticarətin cari həcminin aşağı olaraq qaldığını bildirən Prezident Şavkat Mirziyoyev qeyd edib ki, 2024-cü ildə bu rəqəm 95 milyard dollar olub və ölkələrimizin ümumi ticarət dövriyyəsinin cəmi 10 faizini təşkil edir: "Biz həmin sahədə strateji məsələləri müzakirə etmək üçün bu il Daşkənddə ticarət nazirlərimizin toplantısını keçirməyi və ticarətin asanlaşdırılması sazişinin imzalanmasını təklif edirik. Bundan əlavə, kənd təsərrüfatı, ticarət və əmtəənin məhdudiyyətsiz təchizatı üzrə məlumatların sürətli mübadiləsi üçün "yaşıl dəhlizlər" sistemini yaratmaq çox vacibdir. Sərmayə əməkdaşlığımızı yeni səviyyəyə qaldırmaq üçün "ECO invest" uzunmüddətli proqramını qəbul etmək və sərmayə mühitinin daha şəffaf və cəlbedici olması təşəbbüsü ilə çıxış etmişik. Bu proqramın əsas məqsədi özəl investorları, bankları və beynəlxalq maliyyə təsisatlarını regionumuzda perspektivli layihələrə cəlb etməkdən ibarətdir".

Özbəkistan Prezidenti digər prioritet sahəyə də diqqət çəkib: "Son geosiyasi hadisələr təchizat zəncirlərinin pozulması risklərini bir daha göstərdi, alternativ nəqliyyat dəhlizlərinin strateji əhəmiyyətini nümayiş etdirdi. Bunu biz həmin hadisələrdə gördük. Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin ötən il başlanması mühüm hadisə idi. Gələcəkdə bu dəmir yolu xətti Transəfqan dəhlizi ilə birləşəcək və böyük regionumuzda tranzit şəbəkələrini səmərəli şəkildə bir araya gətirəcək. İnanırıq ki, məhz rəqəmsal nəqliyyat və gömrük ofisinin yaradılması təşəbbüsünün həyata keçirilməsi labüddür. Çünki bunun sayəsində biz nəqliyyat və logistika sektorlarında rəqəmsallaşmanı sistemli şəkildə təşkil edəcəyik və beləliklə, ekspert səviyyəsində danışıqları daha da gücləndirəcəyik.

Mühüm məsələlərə gəldikdə, yeni aviareyslərin açılması, o cümlədən məhz hava nəqliyyatı şirkətləri arasında əməkdaşlığın innovativ şəkildə həyata keçirilməsi, marketinq strategiyalarının gücləndirilməsi turizm və aviasiya sektorlarının inkişafına böyük təkan verəcək. Bu məsələlərin müzakirəsi məqsədilə Səmərqənddə Milli Hava Yolu Şirkətləri Forumunun təşkil olunmasını təklif edirik. Ümumiyyətlə, təşkilatımız daxilində turizm xidmətlərinin daha da genişləndirilməsi ilə bağlı yol xəritəsinin inkişaf etdirilməsinin bizim bu məqsədə xidmət edəcəyinə əminik və hesab edirik ki, bu potensial turizm imkanlarımızı iki dəfə artıracaq".

Çıxışının sonunda Prezident Şavkat Mirziyoyev Bakıda COP29 qlobal iqlim sammitinin uğurla keçirilməsindən sonra əldə edilmiş razılaşmaların və öhdəliklərin tam şəkildə icrasını qəti şəkildə dəstəklədiklərini bəyan edib və təşkilatın fəaliyyətinin daha da gücləndirilməsində yüksəksəviyyəli komitənin səylərini alqışladıqlarını bildirib.

***

Tədbir digər çıxışlarla davam edib.

***

Zirvə görüşünə yekun vuran Prezident İlham Əliyev bu Zirvə görüşündə iştirakına, fikir və təkliflərinə görə hər birinə təşəkkürünü bildirib: "Xankəndi Zirvə görüşü bizim dostluğumuzun daha bir bariz nümunəsinə çevrildi.

Əminəm ki, səsləndirilən fikirlər və təkliflər katiblik tərəfindən ümumiləşdiriləcək və ECO-nun gələcək fəaliyyətində, o cümlədən 2026-2035-ci illər üçün inkişaf sənədinin hazırlanmasında nəzərə alınacaq".

# Qarabağ dünyanı heyrətləndirir

Vətən müharibəsində müzəffər Ordumuzun Zəfəri sayəsində işğaldan azad olunan ərazilərə həyat qayıdır. Güclü və məsuliyyətli Azərbaycan dövləti üç onilliyi əhatə edən işğal illərində erməni vandallarının tamamilə viran qoyduqları bu əraziləri dirçəltmək və dünyanın ən gözəl guşələrindən birinə çevirmək əzmindədir.

Hazırda burada sürətli quruculuq işləri gedir. Biz artıq adət etmişik: Hər gün bəhs olunan ərazilərdən yeni iqtisadi və sosial infrastruktur quruculuğuna, şəhər və kəndlərin məskunlaşdırılmasına aid yeni-yeni xoş xəbərlər gəlir. İcra olunan çoxsaylı layihələri ümumiləşdirsək, qısa şəkildə belə ifadə edə bilərik: Qarabağ dünyanı heyrətləndirir.

Elə bu günlərdə - azad Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin liderlərinin növbəti Zirvə Görüşünün keçirildiyi ərəfədə Prezident İlham Əliyev ayrı-ayrı ünvanlarda yeni açılışlara və təməlqoyma tədbirlərinə qatılıb. Əlamətdar haldır ki, bu xoş əhval-ruhiyyəli mərasimlərin bir çoxunda ECO-nun Zirvə Görüşündə iştirak etmək üçün respublikamıza səfərə gələn dost ölkələrin yüksəksəviyyəli rəsmiləri də Prezident İlham Əliyevin yanında olublar.

Böyük Qayıdış strategiyası perspektivdə də eyni ardıcıllıqla davam etdiriləcək. Xatırladaq ki, Azərbaycan Prezidentinin 2025-ci il 30 may tarixli 611 nömrəli Sərəncamı ilə "2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın 9 ay müddətində hazırlanması üçün Nazirlər Kabinetinə tapşırıq verilib. Həmin tapşırığın icrasının təmin edilməsi məqsədilə imzalanmış Nazirlər Kabinetinin 2025-ci il 18 iyun tarixli Sərəncamına əsasən Strategiya və Dövlət Proqramı üzrə layihələrin hazırlanmasında aidiyyəti dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi üçün Baş nazirin sədrliyi ilə Komissiya yaradılıb və tərkibi təsdiq edilib. Komissiyanın tərkibində Strategiyanın və Dövlət Proqramının hazırlanması üzrə iki işçi qrup yaradılıb və tərkibi təsdiqlənib, Baş nazirin müavinləri - Şahin Mustafayev və Samir Şərifov işçi qrupların rəhbəri təyin olunub. Strategiyanın hazırlanması məqsədilə 9, Böyük Qayıdış Dövlət Proqramı üzrə isə 4 alt işçi qrup yaradılıb.









**Böyük Qayıdış proqramı uğurla reallaşdırılır**

İkinci Qarabağ müharibəsindən əvvəl dövlətimizi və xalqımızı qayğılandıran əsas məsələ işğal faktına son qoyulması və ölkənin ərazi bütövlüyünün təmin edilməsi idi. Rəşadətli Ordumuz 44 günlük Vətən müharibəsində bu missiyanı yüksək səviyyədə həyata keçirdi. Müzəffər Silahlı Qüvvələrimizin 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində həyata keçirdiyi uğurlu döyüş əməliyyatları və Prezident İlham Əliyevin müdrik diplomatik gedişləri sayəsində üç onillik ərzində düşmənin nəzarətində qalan ərazilərimiz hərbi-siyasi yolla işğaldan azad edildi, həmçinin torpaqlarımızda separatizmin kökü kəsildi.

Yeni reallıqlarla səciyyələnən postmüharibə dövründə  hədəflərimiz dəyişib. İndiki mərhələdə 44 günlük müharibədə işğaldan azad edilən ərazilərə Böyük Qayıdışın təmin edilməsi Azərbaycanın gündəliyində duran əsas məsələlər sırasında yer alır. Sözügedən ərazilərə Böyük Qayıdışın təmin edilməsi ölkəmizdə 2030-cu ilədək olan dövrü əhatə edən yeni strateji mərhələdə 5 milli prioritetdən biri kimi müəyyənləşdirilib. Prezident İlham Əliyevin 22 iyul 2022-ci il tarixində imzaladığı müvafiq Sərəncamla təsdiqlənən  "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda Böyük Qayıdış üzrə strateji çərçivə müəyyənləşdirilib.

Hədəflərin müəyyənləşdirilməsi öz yerində. Azərbaycan həm də güclü və məsuliyyətli dövlət kimi qarşıya qoyulan məqsədlərə çatmaqdan ötrü praktiki müstəvidə müxtəlif istiqamətləri əhatə edən çoxsaylı layihələr reallaşdırır. Hazırda işğaldan azad olunmuş ərazilərin məskunlaşdırılması uğurla davam etdirilir. Qeyd edək ki, bu gün Qarabağ və Şərqi Zəngəzurda ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı,  bölgədə aparılan layihələrin icrasında çalışan, ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, həmçinin təhsil alan tələbələr də daxil olmaqla, ümumilikdə, 50 minə yaxın insan yaşayır. "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın ümumi icra faizi təqribən 79 faizdir. Azad olunmuş ərazilərin bərpası üçün 2025-ci il də daxil olmaqla 21,6 milyard manat vəsait ayrılıb. Azad olunmuş ərazilərdə şəhər, qəsəbə və kəndlər üzrə 15 yaşayış məntəqəsinin ilkin mərhələdə inşası tamamlanıb, əhalinin yaşayışı, iqtisadi fəaliyyətə reinteqrasiyası təmin olunub. Hazırda 27 yaşayış məntəqəsinin tikintisi, 25 yaşayış məntəqəsinin təmir-bərpası həyata keçirilir. 21 yaşayış məntəqəsinin isə təməli qoyulub.

**Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışı**

ECO-nun Xankəndidə baş tutan Zirvə Görüşü ərəfəsində Qarabağda yaşanan ən mühüm hadisələrdən biri, heç şübhəsiz ki, iyulun 3-də Azərbaycan Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışıdır. Xıdırlı kəndi Ağdam şəhərinin şimal-qərbində, rayon mərkəzindən 3 kilometr məsafədə yerləşir. 2022-ci ilin oktyabrında kəndin təməlqoyma mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Kəndin layihələndirilən ərazisinin sahəsi 417 hektardan çoxdur. Buraya 1-ci və 2-ci mərhələ üzrə 6 minə yaxın əhalinin köçürülməsi,1498 fərdi evin inşası nəzərdə tutulur.

Birinci mərhələ üzrə layihələndirilən ərazinin sahəsi 170.44 hektardır. Bu mərhələdə kəndə 719 ailənin, ümumilikdə, 2951 nəfərin köçürülməsi planlaşdırılır. Birinci mərhələdə kənddə 719 fərdi evin inşası həyata keçirilib ki, onlardan da 263-ü iki, 332-si üç, 121-i dörd, 3-ü isə beşotaqlıdır.

Prezidentlər İlham Əliyev və Sadır Japarov Xıdırlı kəndində yeni tikilən bir sıra sosial təyinatlı obyektlərlə tanış olublar. Azərbaycanın və Qırğızıstanın dövlət başçıları, həmçinin Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbinin açılışını ediblər.

Sonra prezidentlər İlham Əliyev və Sadır Japarov yeni mənzillərə köçən sakinlərlə görüşüblər.

**Qarabağ atlarının "Zəfər" şousu**

Qarabağ atlarının şöhrəti bütün dünyaya yayılıb. İyulun 3-də Azərbaycan Prezidenti İlham Əliyev, Özbəkistan  Prezidenti Şavkat Mirziyoyev, Qırğız  Prezidenti Sadır Japarov, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar və İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi şəhərində keçiriləcək 17-ci Zirvə Görüşünün iştirakçıları Ağdamdakı "İmarət" Tarix-Memarlıq Muzey Kompleksində Qarabağ atlarının "Zəfər" şousunu izləyiblər.

Hərbi orkestrin ifasında milli musiqi nümunələrimiz, "Sərhədçi" rəqs ansamblının rəqsləri və Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsinin Qarabağ atları üzərində göstərdiyi igidlik və cəsarət nümunələri böyük maraqla qarşılanıb. Şou müddətində süvarilərimiz yüksək peşəkarlıq nümayiş etdiriblər.

Sonra qonaqlar avtobusla Ağdam şəhərini gəziblər.

Səfər çərçivəsində prezidentlər İlham Əliyev, Şavkat Mirziyoyev və Sadır Japarov Ağdamda Şahbulaq qalasında olublar. Bildirilib ki, hazırda abidədə Azərbaycan dövləti tərəfindən bərpa işlərinə başlanılıb.

**"Businesstex JV" tikiş fabrikinin fəaliyyəti ilə tanışlıq**

Məlumdur ki, rəsmən strateji müttəfiqlər olan Azərbaycan və Özbəkistan bir sıra müştərək investisiya layihələrinin həyata keçirilməsini razılaşdırıblar. İyulun 3-də AzərbaycanPrezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Xankəndi şəhərindəki Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan "Businesstex JV" tikiş fabrikinin fəaliyyəti ilə tanış olublar.

**Azad Xankəndinin yeni rəmzləri**

Bir vaxtlar tarixi Azərbaycan şəhəri olan Xankəndi separatizm yuvasına çevrilmişdi. Separatçıların ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə zidd fəaliyyətləri bu şəhərdən koordinasiya olunurdu. Müzəffər Ordumuzun 2023-cü ilin sentyabr ayında keçirdiyi 23 saatlıq lokal xarakterli antiterror tədbirləri nəticəsində Xankəndi separatçılardan birdəfəlik təmizləndi.

Hazırda isə Azərbaycan dövlətinin gücü ilə doğma şəhərimizin yeni rəmzləri yaradılır. Prezident İlham Əliyev iyulun 3-də Xankəndi Konqres Mərkəzinin açılışında iştirak edib. Müasir texniki avadanlıqlarla təchiz olunmuş Konqres Mərkəzi 6500 kvadratmetr sahəni əhatə edir. Burada teatral üslubda 600, ziyafət üslubunda isə 350 nəfərlik tədbir zalları, iclas, konfrans otaqları və digər müxtəlif təyinatlı otaqlar yaradılıb.

Özündə müasirliklə milli memarlıq ənənələrini birləşdirən Mərkəzin binasında müxtəlif konqreslər, konfranslar, seminarlar, işgüzar görüşlər, ölkə və beynəlxalq əhəmiyyətli digər tədbirlərin keçirilməsi üçün geniş imkanlar var.

Şübhə yoxdur ki, Xankəndi-Şuşa kanat yolu hazır olandan sonra Qarabağın yeni gözəllik rəmzləri sırasında yer alacaq. Prezidenti İlham Əliyev Xankəndi-Şuşa kanat yolunun inşası üçün seçilmiş əraziyə baxıb.

Bildirilib ki, Xankəndi-Şuşa kanat yolunun uzunluğu 6 min metrə yaxın olacaq. Kanat yolunun Xankəndidə hündürlüyü 844 metr, Şuşada isə 1317 metr təşkil edəcək. Kanat yolunda hərəkətin müddəti 13 dəqiqəyədək, sürəti isə saniyədə 8 metr nəzərdə tutulur.

Qeyd edək ki, bu layihənin icrası ümumilikdə turizmin inkişafına təkan verməklə yanaşı, Xankəndidən Şuşaya və əks istiqamətə insanların rahat gediş-gəlişinin təmin olunmasında mühüm rol oynayacaq.

**Biznes üçün yaradılan şərait**

İşğaldan azad olunmuş ərazilərdə iş yerlərinin yaradılması da əsas prioritetlərdən biridir. Prezident İlham Əliyev "Xankəndi" Mehmanxana Kompleksinə aid olan "Xankəndi" Biznes Mərkəzinin açılışında iştirak edib.

**Yol-nəqliyyat infrastrukturunun yenilənməsi**

İşğaldan azad olunmuş ərazilərdə yol-nəqliyyat infrastrukturunun yenilənməsi həm iqtisadi, həm də sosial önəm daşıyır. Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa yolunun açılışında iştirak edib. Bildirilib ki, mövcud yolun uzunluğu 101 kilometr, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yeni yol məsafəni 19,3 kilometr qısaldacaq. Birinci texniki dərəcəyə uyğun olan yolun ilk 48 kilometri 6, qalan 33,7 kilometri isə 4 hərəkət zolağından ibarətdir. Yolboyu 1 qovşaq, 11 körpü, 7 tunel, 6 viaduk, yeraltı keçidlər və digər zəruri infrastruktur yaradılıb. Layihə çərçivəsində inşa edilən körpülərin ümumi uzunluğu 1557 metrdir.

Dövlətimizin başçısı, həmçinin Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin təməlini qoyub. Məlumat verildiyi kimi, Bərdə-Ağdam dəmir yolu xəttinin davamı olan Ağdam-Xankəndi dəmir yolu xəttinin uzunluğu 28 kilometr, yan yollarla birlikdə 34,7 kilometrdir. Ağdam-Xankəndi dəmir yolu xətti, o cümlədən 4 körpü, 5 yolötürücü, 3 piyada keçidi, 2 suötürücü boru üzrə layihələndirmə işləri tamamlanıb. Bu dəmir yolu xətti boyunca 3 stansiyanın - Əsgəran və Xocalı stansiyalarının, Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin, mühəndis qurğularının, körpülərin, yolötürücülərin, avtomobil, piyada və kənd təsərrüfatı təyinatlı keçidlərin və digər zəruri infrastrukturun tikintisi nəzərdə tutulur. Layihənin icra müddəti 2025-2026-cı illəri əhatə edəcək.

Qeyd edək ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Ağdam-Xankəndi dəmir yolu 1979-cu ildə inşa olunub. Qarabağın inkişafına hər zaman böyük diqqət yetirən Ulu Öndər bu regiona dəmir yolu xətlərinin çəkilməsinə xüsusi əhəmiyyət verirdi. Bakı-Yevlax-Xankəndi dəmir yolunun açılması nəticəsində Qarabağın sosial-iqtisadi və mədəni inkişafı daha da sürətlənəcək.

**Xankəndidə salınan "Zəfər " parkı**

44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazanılan zəfərlər son 200 illik tariximizin ən şanlı səhifələridir. Azərbaycan xalqı bu qələbələrlə haqlı olaraq qürur duyur. Xankəndidə salınan "Zəfər " parkı da tarixi qələbələrimizi əbədi yaşatmağa xidmət edir. Prezident İlham Əliyev  Xankəndidə Zəfər parkında görülən tikinti işləri ilə tanış olub.

Qeyd edək ki, təməli Prezident İlham Əliyev tərəfindən bu ilin fevralında qoyulan Zəfər parkının salınması istiqamətində işlər sürətlə davam etdirilir. Sahəsi 8,3 hektar olacaq parkın ərazisində işğal dövründə tikinti normaları pozulmaqla inşa edilmiş, eləcə də istismara yararsız bir sıra tikililər sökülüb. Parkın mərkəzində Qələbəmizin rəmzi olan Zəfər Tağının tikintisi də davam edir. Onun hündürlüyü Vətən müharibəsi günlərinin sayına uyğun olaraq 44 metr olacaq. Tağın üst hissəsində ziyarətçilər üçün şəhərə baxış meydançası yaradılır. Parkın mərkəzindəki meydançadan Zəfər Tağına qədər 44 rəmzi pilləkən də nəzərdə tutulub. Bu pilləkənlərdə Vətən müharibəsinin hər günü üzrə azad olunmuş yaşayış məntəqələrinə dair məlumatlar əks etdiriləcək. Abidənin üst hissəsinə - baxış meydançasına yaşlı insanların, uşaqların və fiziki məhdudiyyətli şəxslərin rahat qalxması üçün liftlərin quraşdırılması nəzərdə tutulub. Layihəyə uyğun olaraq parkda geniş yaşıllıq zolaqlarının salınması planlaşdırılır. Parkın ərazisində mövcud olan ağaclar qorunmaqla əlavə 300-dən çox ağac və 9 mindən çox müxtəlif növ dekorativ kollar əkilib.

*Mübariz ABDULLAYEV*

# ABŞ - Azərbaycan: Dost və tərəfdaş ölkələr...

## Ölkəmiz Birləşmiş Ştatlarla dostluq münasibətlərinə və tərəfdaşlığa xüsusi əhəmiyyət verir

### Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa təbrik məktubu ünvanlayıb



Azərbaycan dövlətinin yürütdüyü praqmatik, əməkdaşlığa istinad edən, xüsusilə, bərabərhüquqlu şəkildə qarşılıqlı maraqların qorunmasını özündə birləşdirən siyasət ölkəmizi qlobal dünyanın diqqət mərkəzinə gətirir. Bakı bölgədə formalaşan yeni reallıqlar əsasında yeni konfiqurasiya yaradır, yeni siyasi-iqtisadi nizamın formalaşmasına töhfə verir. Bu isə əməkdaşlıqda maraqlı olan dövlətlər üçün əlaqələrin daha da güclənməsi perspektivini ön plana çəkir. Həm çoxtərəfli, həm də ikitərəfli əlaqələrin inkişafına xüsusi önəm verən Azərbaycanın bu geniş diapazonlu fəaliyyəti dünyanın aparıcı dövlətləri tərəfindən də təqdir olunur. Rəsmi Bakı ilə strateji təmasların gücləndirilməsi istiqamətində atılan addımlar bunu təsdiqləyir. Xüsusi olaraq qeyd edilməlidir ki, bu məsələ güc mərkəzlərinin də gündəliklərində ən aktual prioritet kimi göstərilir. Dünyanın aparıcı güc mərkəzi kimi xarakterizə olunan ölkələr Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduqlarını irəli sürürlər. Azərbaycan da bu münasibətin qarşılığında hər zaman dostluq və işgüzar əməkdaşlıq əlaqələrinin daha da dərinləşdirilməsi üçün səy göstərir. Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa ABŞ-ın milli bayramı - Müstəqillik Günü münasibətilə ünvanladığı təbrik məktubu da dərinləşən əlaqələrin mühüm təsdiqidir.

Qeyd edilməlidir ki, Donald Trampın yenidən dövlət başçısı seçilməsi ilə ABŞ - Azərbaycan münasibətləri yeni mərhələyə qədəm qoyub - son dövrlərdə daha yüksək temp qazanan əməkdaşlıq əlaqələri bu mənada, xüsusi vurğulanmalıdır. Son 6 ayda Prezident Trampın Azərbaycan dövlət başçısına iki dəfə məktub yollaması da bu əlaqələrin inkişaf dinamikasından xəbər verir.

**Fəal və səmərəli əməkdaşlıq...**

Azərbaycan Prezidentinin təbrik məktubunda dövlətimizin Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq münasibətlərinə və tərəfdaşlığa xüsusi əhəmiyyət verdiyi bildirilir. Qeyd olunur ki, beynəlxalq sülh və təhlükəsizliyin gücləndirilməsi, terrorizmə və onun müxtəlif təzahürlərinə qarşı mübarizə, enerji təhlükəsizliyi və bir sıra digər mühüm sahələr üzrə fəal və səmərəli əməkdaşlığımız sıx tərəfdaşlığımızın səciyyəvi cəhətlərindəndir.

Vurğulayaq ki, nəhəng iqtisadiyyata, müqayisəyəgəlməz siyasi çəkiyə malik olan ABŞ-ın son dönəmlərdə Cənubi Qafqaza, xüsusilə Azərbaycana diqqət yetirməsi bir sıra mətləblərdən xəbər verir. Azərbaycanı hər zaman özünün strateji tərəfdaşı kimi xarakterizə edən rəsmi Vaşinqton əməkdaşlığın çoxşaxəli olmasında maraqlı olduğunu ortaya qoyur. ABŞ-ın Azərbaycanla son dövrlərdə daha yüksək temp qazanan əməkdaşlıq əlaqələri növbəti dəfə özünü təcəssüm etdirir - Vaşinqton ilə Bakı arasında beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində yaxın əməkdaşlıq, Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizədə ortaya qoyduğu səylər ABŞ tərəfindən də yüksək dəyərləndirilir. Təsadüfi deyil ki, ABŞ Prezidentinin 28 May Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidentinə ünvanladığı təbrik məktubunda da Azərbaycan Respublikası ilə əlaqələr və terrorizmə qarşı mübarizədə, enerji təhlükəsizliyinin inkişafında ABŞ ilə tərəfdaşlıq yüksək qiymətləndirilirdi. Beləliklə, qarşılıqlı etimad və maraqlar əsasında qurulan Azərbaycan-ABŞ əlaqələri hər iki tərəfin mənafeyinə cavab verməklə yanaşı, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasına da töhfədir. Dünyada gedən bir sıra siyasi proseslər, müxtəlif ölkələr daxilində yaranan gərginlik, beynəlxalq cinayətkar qruplaşmaların, terrorçu təşkilatların fəaliyyətini genişləndirməsi hər iki dövlətin təhlükəsizlik sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığının əhəmiyyətini dəfələrlə artırıb. Bu vaxtadək Azərbaycan Silahlı Qüvvələrinin bölmələri Kosovada, İraqda, Əfqanıstanda gerçəkləşdirilən sülhyaratma əməliyyatlarında uğurla iştirak edərək bu mübarizəyə öz töhfələrini verib. Birləşmiş Ştatlarla ikitərəfli əlaqələr və NATO ilə tərəfdaşlıq çərçivəsində görülən işlər Prezident Tramp tərəfindən hər zaman müsbət qarşılanır.

**ABŞ-ın davamlı dəstəyi...**

Məktubda Amerika Birləşmiş Ştatlarının və Azərbaycanın uzun illərdən bəri enerji sahəsində sadiq tərəfdaş olması bildirilir. Vurğulanır ki, bu sahədə xoş ənənələrə əsaslanan və sağlam təməllər üzərində qurulmuş əməkdaşlığımız hazırda da uğurla davam edir: “Azərbaycanın enerji strategiyası, eləcə də regionda sabitliyə və inkişafa xidmət edən nəhəng infrastruktur layihələrinin həyata keçməsinə ABŞ-nin göstərdiyi davamlı dəstəyini yüksək qiymətləndiririk”.

Həqiqətən də Azərbaycanın yürütdüyü enerji siyasəti son 30 ildə nəinki regionun, daha böyük coğrafiyanın mənzərəsini və enerji xəritəsini dəyişib. Bakı-Tblisi - Ceyhan, Bakı-Tbilisi-Ərzurum enerji xətlləri kimi qlobal layihələrin ərsəyə gəlməsi, bu layihələrin daha geniş əməkdaşlıqlara meydan açması, yeni mərhələlər formalaşdırması göz önündədir - bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində əsaslı rol oynayır, Şimal-Cənub, Şərq - Qərb enerji tranzitinin mühüm logistik mərkəzlərindən sayılır. Azərbaycan ötən müddət ərzində enerji təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş kimi özünü təsdiqləyib: yeni neft-qaz strategiyasında enerji nəqli marşrutlarının şaxələndirilməsini əsas prioritetlərdən biri kimi müəyyənləşdirən ölkəmiz bu gün regional və qlobal enerji təhlükəsizliyinə mühüm töhfələr verir.

**Əlaqələr və əməkdaşlıq bundan sonra da hərtərəfli genişlənəcək**

Bu əlaqələrin gələcək perspektivi də olduqca vacibdir - Azərbaycan ilə ABŞ arasında münasibətlərin daha da genişlənməsi və yeni mərhələyə qədəm qoyması bütün mənalarda bölgənin sabit inkişafı üçün olduqca vacib amillərdəndir. Prezident İlham Əliyevin məktubunda o da qeyd edilir ki, bu gün Azərbaycan-Birləşmiş Ştatlar dostluq əlaqələrini və tərəfdaşlığını keyfiyyətcə yeni səviyyəyə yüksəltmək üçün yaxşı imkanlar vardır: “Hesab edirəm ki, iqtisadi-ticari, energetika, nəqliyyat, sənaye, aviasiya, yüksək texnologiyalar, sərmayə qoyuluşu və digər mühüm sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafı üçün böyük potensial mövcuddur. İnanıram ki, qəti siyasi iradəmiz və birgə səylərimiz sayəsində dost və tərəfdaş ölkələrimiz arasında əlaqələr və əməkdaşlıq xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da hərtərəfli genişlənməyə davam edəcəkdir”.

Bəli, müasir dövrdə ABŞ ilə Azərbaycan arasında əməkdaşlığın inkişafının perspektivləri aydın və çoxşaxəlidir - rəsmi Vaşinqton ölkəmizin regionda yaratdığı yeni reallıqları yüksək dəyərləndirir. Bu isə ABŞ-ın Azərbaycanın yaxın tərəfdaşı olması həqiqətini növbəti dəfə nümayiş etdirməklə yanaşı, əlaqələri daha da möhkəmləndirməkdə, irəliyə daşımaqda maraqlı olduğunu sübut edir. Təsadüfi deyildi ki, Prezident Trampın Azərabycanın dövlət başçısına ünvanladığı son iki məktuda da eyni notlar yer alırdı - əlaqələri daha da gücləndirmək amili önə çəkilirdi. Bu isə onu deməyə əsas verir ki, dünyanın fövqəlgüc ölkəsi sayılan ABŞ ilə Azərbaycan arasındakı münasibətlər yeni mərhələyə qədəm qoyur.

Qeyd edilməlidir ki, Prezident Trampın birinci prezidentlik dövründə (2017-2021) ABŞ-Azərbaycan münasibətlərində yüksək siyasi dialoq və tərəfdaşlıq müşahidə olunub. Bu dövrdə Tramp administrasiyası Azərbaycanla bağlı müsbət mövqe sərgiləyib və tərəfdaşlıq əlaqələrini vurğulayıb. Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevə mütəmadi olaraq təbrik məktubları göndərib. Xüsusilə Respublika Günü (28 may), Müstəqillik Günü (18 oktyabr) və digər mühüm tarixlərdə məktublarında Azərbaycan-ABŞ əlaqələrinin əhəmiyyətini vurğulayıb. 2017, 2018, 2019 və 2020-ci illərdə göndərilən məktublarda Tramp Azərbaycanın enerji təhlükəsizliyinə verdiyi töhfələri və beynəlxalq təhlükəsizlik sahəsində əməkdaşlığını yüksək qiymətləndirib.

Tramp administrasiyası Azərbaycanın Cənub Qaz Dəhlizi layihəsindəki rolunu dəstəkləyib. 2018-ci ildə Prezident Tramp Bakıya ünvanladığı məktubda Azərbaycanın enerji sahəsindəki rolunun vacibliyini qeyd edərək, iki ölkə arasındakı əməkdaşlığın gücləndirilməsini dəstəklədiyini bildirib. 2019-cu ildə ABŞ Dövlət Departamentinin rəsmiləri Azərbaycanın iqtisadi inkişaf istiqamətində atdığı addımları dəstəklədiklərini bildiriblər.

44 günlük müharibə dövründə Tramp administrasiyası Ermənistanı dəstəkləməyib və hər zaman olduğu kimi ölkəmizin ərazi bütövlüyünü tanıyıb - birmənalı şəkildə həmin dövrdə ABŞ-Azərbaycan münasibətləri strateji əməkdaşlıq xəttində inkişaf edib. Trampın şəxsi açıqlamaları və administrasiyasının qərarları göstərir ki, Vaşinqton Bakı ilə əməkdaşlığı yüksək qiymətləndirib.

*Pərviz SADAYOĞLU*

### Milli Məclisin iclasında...

# “Media haqqında” qanuna təklif edilən dəyişikliklər birinci oxunuşda qəbul olunub



İyulun 4-də Milli Məclisin növbəti iclası keçirilib. Əvvəlcə spiker Sahibə Qafarova Milli Məclisin nümayəndə heyətinin 30 iyun-1 iyul tarixlərində Özbəkistana işgüzar səfəri barədə məlumat verib. O bildirib ki, səfərdə məqsəd Birinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunda iştirak etmək idi. Səfərdə 28 deputat, o cümlədən Milli Məclisin sədr müavini, 7 komitə sədri, 6 komitə sədrinin müavini və müxtəlif komitələrin 13 üzvü iştirak edib. Spikerin sözlərinə görə, bu tədbir Milli Məclisin hər hansı digər ölkənin qanunvericilik orqanı ilə keçirdiyi ilk forum idi. Toplantının yekunlarını da nəzərə alaraq söyləmək olar ki, forum parlamentlərimiz arasında əməkdaşlığın səmərəli bir mexanizminə çevriləcək.

**Forum uğurlu oldu**

S.Qafarova deyib ki, Xivə şəhərində keçirilən forumda “Yeni üfüqlərə doğru: Dialoqdan birgə fəaliyyətə” mövzusunda müzakirələr aparıldı. Hər iki ölkənin parlament sədrləri çıxış etdilər. O, çıxışında bəhs etdiyi məqamları vurğulayıb. Bundan əlavə, forum çərçivəsində keçirilən 6 panel sessiyasında bir çox mühüm məsələlər ilə bağlı ətraflı müzakirələr aparılıb. Sessiyalarda 22 deputatımız fəal iştirak edib. Müzakirələrdə 6 deputatımız moderatorluq edib, 16 deputatımız isə fərqli mövzular üzrə çıxış ediblər.

Forumun yekununda Xivə Bəyannaməsi qəbul olunub.

Eləcə də Forum çərçivəsində Azərbaycan Milli Məclisi ilə Özbəkistan Ali Məclisinin Senatı arasında “Parlamentlərarası əməkdaşlığın inkişafına dair 2025-2026-cı illər üçün praktiki tədbirlər planı” imzalanıb. Forumun mühüm nəticələrindən biri də Milli Məclis ilə Özbəkistan Ali Məclisi arasında əməkdaşlıq üzrə Parlamentlərarası Komissiyanın Nizamnaməsinin imzalanması olub. Daimi fəaliyyət göstərən bu orqan ikitərəfli əməkdaşlıq gündəliyini daha səmərəli şəkildə həyata keçirməyə kömək göstərəcək.

**Strateji valyuta ehtiyatlarımız 74 milyard dollardan çoxdur**

Sonra iclasın gündəliyindəki məsələlər müzakirə olunub. Əvvəlcə Konstitusiya Məhkəməsinin hakimlərinin təyin olunması barədə qərar qəbul edilib. Qərara əsasən, Rəşid Rzayev, Otari Qvaladze, Fərhad Tutayuk və Rauf Quliyev Konstitusiya Məhkəməsinin hakimləri təyin olunublar. Onlar parlamentdə and içiblər.

Sonra Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında” qanunun layihəsi (üçüncü oxunuş) müzakirəyə çıxarılıb. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məlumat verdikdən sonra sənəd qəbul olunub. Qeyd edək ki, 2024-cü il üçün dövlət büdcəsinin gəlirləri 37 milyard 161,8 milyon manat, dövlət büdcəsinin xərcləri 37 milyard 713,6 milyon manat olub.

Maliyyə naziri Sahil Babayev isə bildirib ki, bu gün Azərbaycanın strateji valyuta ehtiyatları 74 milyard dollardan çoxdur: “İnanırıq ki, bu göstərici getdikcə daha da artacaq. 2024-cü ilin büdcəsi həm gəlirlərin, həm xərclərin icrasında müsbət dinamika göstərməklə yanaşı, eyni zamanda, imkan verdi ki, Azərbaycan öz ehtiyatlarını daha da artırsın”.

Sonra “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Səudiyyə Ərəbistanı Krallığının Ətraf Mühit, Su və Kənd Təsərrüfatı Nazirliyi arasında bitki mühafizəsi və karantini sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” və “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının Nəqliyyat Baş İdarəsi arasında “Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya”nın (əlavələrlə) I/10 qaydasına uyğun olaraq sertifikatların qarşılıqlı tanınmasına dair Anlaşma Memorandumu” təsdiq edilib.

İclasda “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (ikinci oxunuş) müzakirəyə çıxarılıb. Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli sənədin birinci oxunuşda müzairəsi zamanı deputatlardan tərəfindən səsləndirilən fikir və təkliflərə toxunub, layihənin əhəmiyyətini vurğulayıb. O deyib ki, bəzi məsələlər referendum yolu ilə həll oluna bilər.

Sonra Əli Hüseynli “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanunu layihəsinin (ikinci oxunuş) mahiyyəti barədə danışıb. Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi ilə əlaqədar olaraq, “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununa müvafiq dəyişikliyin edilməsi təklif olunur. Burada məqsəd Naxçıvan Konstitusiyasına ediləcək dəyişikliklərdən sonra “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun 2.10-cu maddəsində yarana biləcək uyğunsuzluğun aradan qaldırılmasıdır.

**Şəxsiyyət vəsiqələrində yeniliklər olacaq**

Milli Məclis şəxsiyyət vəsiqəsində göstərilən məlumatlara yaşayış yeri və vətəndaşlıq məlumatlarının əlavə edilməsi təklifini də birinci oxunuşda qəbul edib. Sənəd “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” qanuna təklif olunan dəyişiklik layihəsində öz əksini tapıb. Qeyd olunub ki, dəyişiklik layihəsi Azərbaycan vətəndaşının şəxsiyyət vəsiqəsinin Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) 9303 nömrəli standartının tələblərinə uyğunlaşdırılması, həmçinin şəxsiyyət vəsiqəsinin istifadəsi üzrə yaranmış bəzi çətinliklərin aradan qaldırılması məqsədilə hazırlanıb.

Məlumata görə, Azərbaycan vətəndaşının şəxsiyyət vəsiqəsi səyahət sənədi kimi də (Türkiyəyə münasibətdə) istifadə olunur. Şəxsiyyət vəsiqəsinin üzərində şəxsin ünvanı barədə məlumatın əks olunmaması vəsiqənin istifadəsi üzrə bəzi çətinliklərə səbəb olur. Bu baxımdan, şəxsiyyət vəsiqəsinin formasında və üzərində olan məlumatların dairəsində dəyişiklik edilməsi zərurəti yaranıb. Buna görə də şəxsiyyət vəsiqəsində əks olunan məlumatların tərkibinin yenilənməsi təklif olunur.

Belə ki, şəxsiyyət vəsiqəsində göstərilən məlumatlara yaşayış yeri və vətəndaşlıq məlumatları əlavə ediləcək. Eyni zamanda elektron daşıyıcıda (çipdə) əvvəlki variantla müqayisədə yalnız daha zəruri məlumatların saxlanılması təklif olunur. Bütövlükdə, təklif olunan dəyişikliklər şəxsiyyət vəsiqəsi ilə bağlı məlumatların daha müasir sistemlərdə, təhlükəsiz və çevik şəkildə idarə olunmasını, həmçinin sənədləşmə prosedurlarının və xidmətlərin vətəndaş üçün sadələşdirilməsini təmin edəcək.

**Media Reyestrində olmayanlar nə qədər cərimələnəcək?**

Deputatlar “Media haqqında” qanuna da dəyişiklikləri müzakirə ediblər. Layihə haqqında parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc məlumat verib. Z.Oruc bildirib ki, bu dəyişikliklər cəmiyyətin və media ictimaiyyətinin tövsiyələri, istək və təklifləri nəzərə alınaraq irəli sürülüb: “Burada əsas məqsəd Azərbaycanın informasiya mühitinin qorunaraq, sağlamlaşdırılması, media brendinin və jurnalistin nüfuzunun artırılması, informasiya məkanında hər hansı neqativ hallara qarşı mübarizədə cəmiyyətin tələblərini nəzərə alaraq dövlət tənzimlənməsində həssaslığın artırılması, çevikliyin təmin edilməsidir. Nəzərdə tutulan dəyişikliklər qəbul olunarsa, bu, bütün media məkanında şəffaf və sağlam mühitin formalaşmasında önəmli rol oynayacaq”.

Məlumat verilib ki, qanunda ilk dəfə olaraq kütləvi informasiya istehsalı ilə məşğul olan ənənəvi media resurslarına münasibətdə “media subyekti” anlayışı təqdim edilib, bununla da peşəkar medianın əhatə dairəsi müəyyənləşdirilib. Dəyişikliyə əsasən, media sahəsində fəaliyyət göstərən xarici hüquqi şəxsin Azərbaycandakı filial və nümayəndəliyi də media subyekti hesab ediləcək. Ciddi sosial sifarişi nəzərə alaraq, həm informasiya mühitinin çirklənməsinə səbəb olan, həm də jurnalistlərin nüfuzuna təsir edən saxta xəbərlərlə mübarizə metodlarını gücləndirmək məqsədilə qanuna dəyişikliklərin edilməsi təklif olunur. Belə ki, qanunun informasiyaya dair tələbləri əks etdirən 14-cü maddəsinə saxta məlumatların dərc edilməsinə (yayımlanmasına) yol verilməməsinə dair normanın əlavə edilməsi nəzərdə tutulub. Qanuna təklif edilən dəyişikliyə əsasən, informasiya agentliyinin azı 20 media subyekti ilə məlumat verilməsi (əldə edilməsi) haqqında müqaviləsi olmalı, azı 5 xarici ölkədə jurnalisti akkreditasiya olunmalı, həmçinin hər ay 20 gün ərzində gündəlik dərc etdiyi kütləvi informasiyanın ümumi həcminin azı 80 faizi özü tərəfindən istehsal edilmiş olmalıdır.

Eyni zamanda, layihəyə əsasən, Media Reyestrində olmadan fəaliyyət göstərən çap mediası subyektinin çap mediası məhsulunun, həmin subyekt, nəşriyyat (naşir) və ya yayıcı tərəfindən nəşri və ya yayımına görə fiziki şəxslər 500 manatdan 1 000 manatadək, vəzifəli şəxslər 1 500 manatdan 2 500 manatadək məbləğdə, hüquqi şəxslər 3000 manatdan 5 000 manatadək məbləğədək cərimə ediləcək.

Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Qeyd edək ki, iclasın gündəliyində olan bütün məsələlər qəbul edilib. Sonda spiker Sahibə Qafarova parlamentin növbəti iclasının iyulun 8-də keçiriləcəyini diqqətə çatdırıb.

*Nardar BAYRAMLI*

# Sahibkarlığın inkişafı üçün...

## Daxili və xarici investisiyaların cəlb edilməsi gündəmdədir

Azad sahibkarlığın inkişafı dövlətimiz tərəfindən dəstəklənməkdə, təşviq olunmaqdadır. Paytaxtda, eləcə də işğaldan azad edilən ərazilərdə sahibkarlığın inkişafı üçün ölkəmiz tərəfindən atılan mühüm addımlardan biri də bu məsələdə bütün əlaqədar qurumların səfərbər edilməsi, onların imkanlarından maksimum istifadə olunmasıdır.

Ölkəmizdə həyata keçirilən iqtisadi siyasətdə əlverişli biznes və investisiya mühiti yaratmaqla daxili və xarici investisiyaların cəlb edilməsi, qeyri-neft sektorunun güclü inkişafına nail olunması mühüm aktuallıq kəsb edir. Qeyri-neft sektorunun hərtərəfli, sürətli və səmərəli inkişafının təmin edilməsinin ən zəruri şərtlərindən biri sahibkarlığın inkişaf etdirilməsi, ilk növbədə kiçik və orta biznes fəaliyyətinin səmərəliliyinin artırılmasıdır. Azad sahibkarlığın və liberal iqtisadiyyatın inkişafı istiqamətində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətini xüsusilə qeyd etmək lazımdır.

### Bu sahibkarlara təlimlər keçiriləcək

Azərbaycanda istehsal ilə məşğul olan sahibkarlar KOB Model Müəssisədə keçirilən təlimlərə dəvət olunurlar. Bu barədə İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) məlumat verilib.

Bildirilib ki, təlimlər qənaətli istehsal, resurslardan və xammaldan səmərəli istifadə, hazır məhsulun düzgün saxlanılması, istehsal prosesinin və vaxtın optimallaşdırılması, işçi qüvvəsinin istehsal prosesində bərabər paylaşdırılması kimi mövzuları əhatə edir.

Təlimlərdə istehsal ilə məşğul olan sahibkarlar və onların əməkdaşları ilə yanaşı, aidiyyəti ixtisaslar üzrə təhsil alan tələbələr və bu fənləri tədris edən müəllimlər də iştirak edə bilərlər.



### 70-ə yaxın sahəvi və maarifləndirici görüşlər keçirilib

Bundan başqa, bu ilin yanvar-iyun ayları ərzində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin təşkilatçılığı ilə sahibkarlar və potensial biznes subyektlərinin iştirakı ilə Bakıda və regionlarda 68 sahəvi və maarifləndirici görüş keçirilib.

KOBİA-dan verilən məlumata görə, 1400-dən çox sahibkarın iştirak etdiyi görüşlər maliyyə resurslarına çıxış, turizm, heyvandarlıq, çayçılıq, sənaye, reklam və digər sektorlar üzrə biznesin aktual ehtiyaclarına həsr olunub. Sahibkarların iştirak imkanlarını artırmaq məqsədilə bəzi görüşlər onlayn formatda baş tutub.

Bu ilin ikinci yarısında da sahəvi və maarifləndirici görüşlər davam etdiriləcək. Ay ərzində keçirilən görüşlər barədə KOBİA-nın rəsmi internet saytından məlumatlar əks olunub.

Qeyd edilib ki, müvafiq dövlət qurumlarının iştirakı ilə təşkil olunan belə görüşlər sahibkarlarla birbaşa ünsiyyətin genişlənməsinə, onların ehtiyac və təkliflərinin yerində öyrənilməsinə, mövcud dəstək mexanizmləri barədə məlumatlandırılmasına, eləcə də praktiki məsələlərin müzakirəsinə imkan yaradır. Bu görüşlər, eyni zamanda, sahibkarların bilik və bacarıqlarının artırılması, şəbəkələşməsi, dövlət-sahibkar əməkdaşlığının gücləndirilməsi baxımından da əhəmiyyətlidir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti üzrə hazırlanmışdır**

### Sahibkarlar Qarabağ və Şərqi Zəngəzura da dəvət olunurlar

KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov 6-cı İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) biznes forumunda bildirib ki, indiyə qədər 3700-dən çox xarici investor Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə sərmayə qoymaq üçün müraciət edib. Onun sözlərinə görə, ECO ölkələrinin yerləşdiyi region böyük potensiala malikdir: "Bu regionda kiçik və orta müəssisələr açmaq üçün ən yaxşı imkanlar var. KOBİA olaraq biz innovasiyaları irəli aparan, iş yerləri yaradan və regional ticarət əlaqələri quran bu müəssisələri dəstəkləməyə diqqət yetiririk. Biz sahibkarlara tənzimləyici məsləhətlərdən tərəfdaş axtarışına və startap təlimatından ixrac dəstəyinə qədər birbaşa yardım göstərən KOB evləri və KOB ofisləri şəbəkəsi yaratmışıq".

Sədr qeyd edib ki, Azərbaycan təşkilata üzv ölkələrlə əməkdaşlığı dərinləşdirməyin müsbət məqamlarını görür: "Kənd təsərrüfatı, qida emalı, logistika, İKT və yaxud tekstil sahəsində olsun, birgə müəssisələr, təchizat şəbəkəsi və bilik mübadiləsi üçün geniş imkanlar var. İnvestorlar və sahibkarlar təkcə Bakıya deyil, Qarabağ və Şərqi Zəngəzura da dəvət olunurlar. Bu günə qədər həmin ərazilərə investisiya qoymaq istəyən sahibkarlardan 3 700-dən çox xarici investordan müraciət almışıq. Məqsədimiz beynəlxalq tərəfdaşlarımızın fəal iştirakı ilə bu ərazilərdə güclü, rəqabətqabiliyyətli KOB ekosistemi qurmaqdır".

*Sahib*

# Ermənistanda qeyri-stabil vəziyyət

## Paşinyan tələb edir, kilsə isə geri çəkilmir...

Ermənistanda daxili siyasi vəziyyət gərgin olaraq qalır. Nikol Paşinyan hakimiyyəti ilə kilsə arasındakı ziddiyyətlər dərinləşməkdə davam edir. Buna paralel olaraq isə rəsmi İrəvan ölkədə bəzi islahatların aparılmasını zəruri sayır - xüsusilə, Ermənistanın Elektrik Şəbəkəsinin milliləşdirilməsi ilə bağlı addımlar birmənalı qarşılanmır. Bəzi siyasi qüvvələr bu addımı "anti-Rusiya" məqsədilə atıldığını bildirirlər. Hətta bu məsələ, Ermənistan parlamentində böyük qalmaqala səbəb olub.

### Qanun dəyişdi, parlamentdə əlbəyaxa dava düşdü...

Vurğulandığı kimi, Samvel Karapetyana məxsus "Ermənistanın Elektrik Şəbəkələri" şirkətinin milliləşdirilməsi haqqında qanun layihəsi ikinci oxunuşda qəbul edilib - yekun oxunuşda Ermənistanın elektrik şəbəkələri şirkətlərinin milliləşdirilməsinə imkan verən düzəlişlər paketi qəbul olunub. Layihənin lehinə 65 deputat, əleyhinə isə 27 deputat səs verib. Layihəyə tərəfdar çıxanlar yalnız hakim partiyanın üzvləri olub. Qəbul edilən qanunvericilik dəyişiklikləri zərfinə "Energetika haqqında" və "Dövlət Xidmətlərinin Tənzimlənməsi Komissiyası haqqında" qanunlara dəyişikliklər daxildir.

Paralel olaraq isə parlamentin iclasında "Ermənistan Elektrik Şəbəkəsi" QSC-nin milliləşdirilməsini nəzərdə tutan qanun layihəsinin müzakirəsi zamanı qalmaqallı vəziyyət yaranıb. Deputat Ovik Aqazaryan (iqtidaryönlü Mülki Müqavilə partiyasının keçmiş üzvü, bu yaxınlarda partiyadan xaric edilib - red.) Elektrik Şəbəkəsinin milliləşdirilməsinin əleyhinə çıxıb: "Vaxtilə İrəvan Konyak Zavodu özəlləşdirilməsəydi, bu gün Ermənistanda üzümçülük olmazdı. Su təsərrüfatı sistemi özəlləşdirilməsəydi, bu gün ölkədə su qıtlığı yaşanardı. Rusiya tərəfini bizim təxribatlarımıza uymamağa çağırıram", - deyə deputat bildirib.

Aqazaryanın sözləri keçmiş partiya yoldaşlarının etirazı ilə qarşılanıb. Xüsusən də Arman Eqoyan çıxışdan sonra Aqazaryanın fikirlərini "rəzalət" adlandırıb - iki deputat arasında mübahisə yaranıb, daha sonra Aqazaryan Eqoyana tərəf su butulkası atıb. İclasa sədrlik edən Milli Məclisin vitse-spikeri Akop Arşakyan Aqazaryanı nizam-intizama riayət etməyə çağırıb. Arşakyan Aqazaryanın iclas zalından çıxarılmasını tələb edib və onun müzakirələrdə iştirakını qadağan edib. Arşakyan Eqoyana da xəbərdarlıq edib.

Qeyd edək ki, Aqazaryan 2024-cü ilin dekabrına qədər "Vətəndaş sazişi"nin üzvü olub, lakin həmin ay partiyadan kənarlaşdırılıb. 2025-ci ilin yazında o, yeni siyasi partiya yaradaraq baş nazir Nikol Paşinyanın impiçmenti təşəbbüsü ilə çıxış edib.

### Paşinyan istefa tələb edir...

Hakimiyyətin revanşist anti-qərb qüvvələrə qarşı demarşı ilə yanaşı, kilsə ilə mübarizəsi də ön plandadır. Artıq bir neçə aydır davam edən kilsə - iqtidar qarşıdurması səngimir. Baş nazir Paşinyan açıq şəkildə kilsənin "yenilənməsi" çağırışları səsləndirir. O, bütün ermənilərin katolikosu üçün növbədənkənar seçkilərin keçirilməsinin zəruriliyini bəyan edib və bu barədə sosial şəbəkədə yazıb. "Növbədənkənar seçkilər birmənalı şəkildə keçirilməlidir", - o qeyd edib.

Qeyd edildiyi kimi, may ayının sonundan bəri Paşinyan ermənilərin katolikosu II Qaregin və erməni apostol kilsəsinin arxiyepiskoplarına qarşı sərt bəyanatlarla çıxış edir, katolikosdan subaylıq andını pozması ilə bağlı məlumatlar səbəbindən taxtdan çəkilməsini tələb edir. İyun ayının sonunda İrəvanda erməni apostol kilsəsinin 2 arxiyepiskopu həbs edilib. Şirak yeparxiyasının rəhbəri arxiyepiskop Mikael Acapaxyan hakimiyyəti ələ keçirməyə çağırışda, "Müqəddəs mübarizə" etiraz hərəkatının lideri, arxiyepiskop Baqrat Qalstanyan isə Ermənistanda terror aktları planlaşdırmaqda və hakimiyyəti ələ keçirməkdə ittiham olunur. Arxiyepiskoplardan əlavə daha 15 nəfər həbs edilib.





### Kilsədən demarş - Qaregin gənclərə müraciət etdi...

Hakimiyyətin bu davranışlarının qarşısında kilsə də geri çəkilmir - iyulun 3-də II Qareginin təşkilatçılığı ilə "Xristian ailəsi - erməni kimliyinin sütunu" devizi altında ümumerməni ziyarətinin açılış mərasimi keçirilib. Erməni Kilsəsinin Ümumdünya Gənclər Birliyinin yaradılmasının 25-ci ildönümünə həsr olunan və iyulun 2-dən 7-dək keçiriləcək ümumerməni ziyarətində erməni kilsəsinin üzvləri və rəhbərləri, eləcə də Ermənistanın müxtəlif yeparxiyalarından və diasporadan olan 300-ə yaxın kilsəyə sadiq gənc iştirak edir. Bu tədbir həm də kilsənin "güc nümayişi" sayılır. Təsadüfi deyil ki, öz çıxışında II Qaregin kilsə tədbliğatının əsas ünsürləri üzərində dayanıb - o, daxili siyasi parçalanmaya və Ermənistan hakimiyyətinin Erməni Apostol Kilsəsinə qarşı başlatdığı kampaniyaya da toxunub, gənclərin "birlik və bütövlüyə" çağırıb.

Paşinyan isə "Telegram"da bildirib ki, kilsə 2025-ci ilin iyun ayında kafedralın zənglərini çalaraq xalqı toplaşmağa çağırıb. Lakin ruhanilərin və vətəndaşların sayı 1500 nəfəri keçməyib. "Ktriç Nersisyanın Katolikos iqamətgahını dərhal azad etməsinə dair başqa bir dəlil, başqa yol yoxdur!", - Paşinyan vurğulayıb.

Bir çox siyasi mütəxəssislər Ermənistanda kilsə-hakimiyyət qarşıdurmasının gələn il keçirilməsi nəzərdə tutulan parlament seçkilərinə qədər davam edəcəyini yazır - hətta erməni KİV-ləri artıq Qareginin "siyasi seçim" qarşısında olduğunu, hansısa qüvvə ilə işbirliyinə gedəcəyini yazır. Paşinyan tərəfdarlarının son günlər daha da fəallaşmasının səbəbi də bununla izah edilir - bildirilir ki, Paşinyan bir çox Qərb diaspora təşkilatlarından və xarici dövlətlərdən kilsəyə yardım edilməyəcəyi ilə bağlı zəmanət alıb. Mübarizənin açıq fazaya keçidi də məhz bu səbəbdən baş tutub.

### Konstitusiya müzakirələri başlayır...

Kilsə-hakimiyyət qarşıdurmasının kökündə həm də regional sabitlik məsələsinin dayanması sirr deyil - Ermənistanın ruhani dairələri ilə revanşistlərin işbirliyi ilk növbədə Azərbaycan ilə münasibətlərin normallaşması prosesini hədəfə alır. Onlar birinci növbədə sülh müqaviləsinin imzalanmasını ən azı ləngitməyə nail olmaq istəyirlər. Konstitusiya islahatı üzrə Şuranın uzun müddətdən sonra ilk iclası isə iki həftə sonra keçiriləcək. Bu barədə Ermənistanın ədliyyə naziri Srbui Qalyan hökumətin iclasından sonra bildirib. Onun sözlərinə görə, Konstitusiyanın yeni mətni 10 ay ərzində hazır ola bilər, lakin müddət müzakirələrin gedişatından asılıdır. Nazir qeyd edib ki, layihənin müzakirəsi açıq ola bilər. "Mətn hazırlanma mərhələsindədir. Əsas konseptual müddəalar üzrə müzakirələr aparılacaq və yalnız bundan sonra sənəd ictimaiyyətə təqdim ediləcək", - o bildirib.

Nazir, həmçinin əlavə edib ki, müzakirələrin yekununda layihədə əhəmiyyətli dəyişikliklər ola bilər. Onun sözlərinə görə, Müstəqillik Bəyannaməsinə mümkün düzəlişlər məsələsi də müzakirə olunacaq.

Qeyd edək ki, baş nazir Nikol Paşinyan hələ 2018-ci ildə konstitusiya islahatının zəruriliyindən danışsa da, sonrakı illərdə proses ləngiyib - Konstitusiya İslahatı Komissiyası 2019-cu ilin yayında yaradılıb və ilkin olaraq ədliyyə sistemində dəyişikliklərə və dövlət idarəçiliyinin yeni modelinə keçidə diqqət yetirib. Lakin son aylarda Konstitusiya dəyişikliyi ilə bağlı proses yeni yön alıb. Bakı sülh müqaviləsinin imzalanması üçün dəyişikliyi mühüm şərt kimi irəli sürüb. Haqlı olaraq irəli sürülən bu müddəa sülhün bağlanması üçün ən vacib şərt hesab edilir.

Martın sonunda Ermənistanın baş naziri Nikol Paşinyan bəyan edib ki, 2027-ci ildə yeni Konstitusiyanın qəbul edilməsi üçün referendum keçirilməsi planlaşdırılır. Bununla yanaşı, baş nazir əlavə edib ki, onun komandasında referendumun 2026-cı ildə parlament seçkiləri ilə paralel keçirilməsinin məqsədəuyğunluğu barədə fikirlər səslənir.

*P.İSMAYILOV*

# Telefon diplomatiyası...

## Bir saatlıq danışıqda nələr müzakirə olundu?

Son vaxtlar siyasətçilər arasında telefon diplomatiyasına geniş yer verilir və ən kritik qlobal çağırışlar belə telefon danışıqlarında müzakirə predmetlərinə çevrilir. Bu günlərdə Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampla Rusiyanın dövlət başçısı Vladimir Putin arasında növbəti telefon danışığı baş tutub. Bu, iki lider arasında son bir ay yarımda təşkil olunan sayca dördüncü telefon rabitəsidir.

Əlbəttdə, informasiya-kommunikasiya texnologiyalarının hazırkı yüksək inkişaf səviyyəsini nəzərə alsaq, liderlər arasında genişlənən telefon diplomatiyasını birmənalı şəkildə dəstəkləmək mümkündür. Hər halda yüksək səviyyəli rəsmilərin telefon təmaslarını qurmaq onlar arasında, necə deyərlər, tet-a-tet görüşləri təşkil etməkdən daha asandır. Lakin belə görünür ki, telefon diplomatiyası qurmaq nə qədər asan olsa da, bu zaman müzakirələrə çıxarılan məsələlərin həlli yenə də uzanır. Təəssüf ki, V.Putinlə D.Tramp arasında baş tutan son bir saatlıq telefon danışığının əsas mövzusu - Rusiya-Ukrayna müharibəsinin başa çatdırılması üzrə də dünyanın gözlədiyi razılaşma əldə olunmayıb.

### Müharibənin dəhşət saçan statistikası

Artıq Rusiya-Ukrayna müharibəsi 1228-ci gününə daxil olub. Bu, adi bir rəqəm deyil. Hər ötən gün tərəflər böyük həcmlərdə itkilərə məruz qalıblar, resurslarını itiriblər, şəhər və kəndlər, mülki infrastruktur, strateji əhəmiyyətli obyektlər dağılaraq əhəmiyyətsiz toz-torpağa, külə çevrilib, insanlar həyatlarını itiriblər. Ötən dövrün statistikası dəhşət saçır. 2022-ci il fevralın 24-də başlayan və artıq üç ildən çoxdur ki, davam edən müharibənin həm milli səviyyələrdə, həm də qlobal miqyasda yaratdığı fəsadlar ötən hər gün daha da dərinləşir. Yüz minlərlə gəncin həyatını itirməsi, heç şübhəsiz ki, müharibənin ən ağır nəticəsidir. Ukrayna demoqrafik fəlakət içərisindədir. Verilən məlumatlara əsasən, hələ müharibədən əvvəl Ukraynada bu sahədə böhran olsa da, aktiv döyüş əməliyyatları başlayandan sonra vəziyyət faciəvi hal alıb. On milyonadək insanın məcburiyyət qarşısında ölkəni tərk etdiyi bildirilir. Ən azı beş milyon ukraynalı isə hazırda Rusiyanın nəzarəti altına keçən ərazilərdə yaşayır. Əgər 1990-cı illərin əvvəllərində Ukrayna əhalisinin sayı 51,5 milyona çatmışdısa, hazırda Kiyevin nəzarətində qalan ərazilərdə cəmi 29 milyon insan yaşayır. Ukraynanın iqtisadiyyatı da iflic hala düşüb. İş o yerə çatıb ki, ölkənin büdcəsi Qərb dövlətləri tərəfindən dəstəklənir.

Müharibənin Rusiyaya vurduğu ziyanın miqyası da kifayət qədər böyükdür. Bu ölkə uzun sürən yorucu müharibənin içindədir. Aktiv döyüşlərdə Rusiyanın daha çox sayda hərbçi itirdiyi bildirilir. Rusiya 3 il ərzində hərbi sənayesini əhəmiyyətli dərəcədə səfərbər etməyi bacarsa da, Qərbin tətbiq etdiyi ardıcıl sanksiyalar fonunda digər sahələrdə geriləmələr qaçılmaz olub. Xüsusilə də, neft-qaz ehtiyatlarının, qiymətli metalların ixracının məhdudiyyətlər altına düşməsi, aktivlərin dondurulması nəticəsində ölkə milyardlarla dollar həcmində gəlirdən məhrum qalır. Buna görə də hazırda Rusiya özünün karbohidrogen resurslarını bir sıra ölkələrə dünya bazarı qiymətlərindən xeyli ucuz satmaq zərurəti ilə üz-üzədir.

Uzanan müharibə həm də demək olar ki, bütün dünya üçün çətinliklər yaradıb. Müharibə coğrafiyasının genişlənməsi ilə bağlı xəbərlər Avropada böyük həyəcanla izlənilir. Eyni zamanda, Rusiyaya tətbiq olunan sanksiyalar Avropa İttifaqı məkanında təchizata mənfi təsir göstərir, istehsal zəncirində qırılmalar müşahidə edilir, inflyasiya artıb və enerji təhlükəsizliyinə ciddi təhdidlər yaranıb.

### Ağ Evdə fikir ayrılığı

Əlbəttdə, Ağ Ev sahibinin ilk 100 gündə və ondan sonrakı mərhələdə müharibəni bitirmək çağırışlarının eşidilməməsinə laqeyd qaldığını söyləmək mümkün deyil. O, sülh çağırışları ilə yanaşı, müəyyən manevrlərə də keçid edir.

ABŞ-ın "Avropanın qorunması poliqonuna" çevrilən Ukraynaya təzyiq imkanları daha çoxdur. Artıq iyulun 1-dən etibarən Vaşinqton sonadək müqavimət göstərmək istəyində olan Ukraynaya bir sıra silahların tədarükünü dayandırıb. Siyahıda "Patriot" hava hücumundan müdafiə sistemləri üçün sursatların, GMLRS yüksək dəqiqlikli mərmilərin, idarə olunan "Hellfire" raketlərinin, "Stinger" daşına bilən sistemlərin yer aldığı bildirilir. Pentaqonda bunun səbəbi kimi, ABŞ-ın özündə silah-sursat ehtiyatının azalması göstərilsə də, verilən qərarın Kiyevə təzyiq cəhdi olduğu da istisna edilmir. Bu silahlar Ukraynaya müqaviməti davam etdirmək üçün hava, su kimi lazımdır. İş o yerə çatıb ki, artıq Ukraynada ABŞ silahlarının ödəniş yolu ilə alınması barədə müzakirələr başlayıb. Ən optimal variant kimi isə ABŞ silahlarının Avropa İttifaqı tərəfindən alınaraq Ukraynaya tədarük edilməsi göstərilir ki, bunun da baş tutacağı ehtimalı çox azdır.

Belə bir şəraitdə Ağ Evdə yaranan fikir ayrılığı da diqqət çəkir. D.Tramp komandasının bir sıra üzvləri Ukraynaya silah tədarükünün dayandırılması ilə razılaşmırlar. Bu mövqeni bölüşən parlamentarilərin də sayı az deyil. Onlar hesab edirlər ki, əliyalın Ukraynanın sülh masasına əyləşməkdən başqa çarəsi qalmayacaq...

Rusiyaya tətbiq olunan sanksiyalar Ağ Evdə parçalanma yaradan digər bir səbəbdir. ABŞ Prezidentinin xüsusi nümayəndəsi Stiv Uitkof hesab edir ki, energetika sahəsində Rusiyaya qarşı tətbiq olunan sanksiyaları aradan götürmək zəruridir. Stiv Uitkofun təklifi Ağ Evdə bir növ bomba effekti yaradıb. Bu təklif Kiyevə dolayı təzyiq kimi dəyərləndirilib. O cümlədən daxili işlər naziri Duqlas Berqam bildirib ki, nəinki Rusiyaya qarşı sanksiyalara son vermək lazımdır, əksinə bu ölkə energetika sektorundan tamam sıxışdırılıb çıxarılmalıdır. Yeri gəlmişkən, Ağ Ev sahibinin özü də zaman-zaman rəsmi Moskvaya sülh masasından uzaq durarsa, sanksiyaların əhatə dairəsinin genişləndiriləcəyi barədə mesajlar ötürür...





### Müharibəni qısa müddətdə bitirmək planı işləmədi - Tramp narazıdır

Təsvir olunan kədərli mənzərə fonunda dünya Trampın hələ seçkiqabağı təşviqat mərhələsində verdiyi "prezident seçilsəm, Rusiya-Ukrayna müharibəsini qısa müddətdə bitirəcəyəm" vədini böyük ümidlə qarşıladı. Şübhə yoxdur ki, D.Trampın "müharibə yox, sülh prezidenti olacağam" vədi onun seçki marafonundan qalib çıxmasında mühüm rol oynadı. Dipomatiya müstəvisində Ağ Evin yeni administrasiyasının davamlı səylər göstərdiyi, təşəbbüslər irəli sürdüyü görünür. Ancaq aylar ötsə də, bu səylər nəticəyə çevrilməyib. Bəlkə də, D.Trampın "müharibənin başlamasında ABŞ-ın, Bayden komandasının rolu olub" etirafı cari ilin yanvarından bəri iş başında olan yeni administrasiyanın ən böyük "uğuru" sayıla bilər.

İndiyədək müharibəni dayandırmaqla bağlı çoxsaylı cəhdləri boşa çıxan Donald Tramp Rusiyanın dövlət başçısı ilə baş tutan son telefon danışığının nəticəsindən də məyusluğunu və narazı qaldığını gizlətməyib. O, telefon danışığında yenidən hərbi əməliyyatların tezliklə dayandırılması məsələsini gündəmə gətirsə də, gözlədiyi cavabı almayıb. Vaşinqton yaxınlığındakı Endryus hərbi bazasında jurnalistlərlə söhbət zamanı Ağ Ev rəhbəri yaranmış vəziyyətdən məmnun olmadığını vurğulayıb. O, telefon söhbətinin yekunlarına əsasən bildirib ki, Ukrayna məsələsi ilə bağlı danışıqlarda irəliləyiş yoxdur. "Bizim söhbətimiz oldu. Kifayət qədər uzun söhbət zamanı biz İran da daxil olmaqla bir çox məsələləri müzakirə etdik. Biz, həmçinin Ukrayna münaqişəsi barədə danışdıq, mən narazıyam", - deyə D.Tramp vurğulayıb.

### Moskva mövqeyində israr edir

Uzanan müharibə nə qədər yorucu olsa da, Moskva hələ də mövqeyində israr edir. Bəhs olunan telefon danışığında bu, bir daha təsdiqini tapıb. Artıq dünya mətbuatı iki lider arasında baş tutan telefon danışığının təfərrüatlarını yayır. Bildirilir ki, Putin Ukrayna müharibəsinin necə davam edəcəyi ilə bağlı mövqeyini açıq şəkildə ifadə edib. ABŞ mətbuatının yazdığına görə, Putin birmənalı şəkildə bildirib ki, Rusiya "Ukraynadakı münaqişənin əsas səbəblərini aradan qaldırmaq məqsədinə nail olacaq" və "məqsədlərindən geri çəkilməyəcək ".

Rəsmi Moskvanın diplomatiya müstəvisində sərgilədiyi bu mövqe həmçinin Rusiya Ordusunun sahədə hücumların miqyasını genişləndirməsi ilə müşayiət olunur. Son günlərdə Kiyevin ağır silahlardan vurulması daha da intensivləşib. Ukraynanın əsas liman şəhərlərindən biri olan Odessanın götürülməsi Rusiyanın yaxın planlarından biri kimi müzakirə olunur. Təsadüfi deyildir ki, bu şəhər də son günlərdə tez-tez dağıdıcı hücumlara məruz qalır. Odessanın götürülməsi ssenarisi baş tutarsa, bu, müharibənin taleyini böyük dərəcədə həll edəcək.

*Mübariz FEYİZLİ*

---

# 4,3 milyon avro nəyə xərclənib?

## Liberal və ultra-sağ düşüncəli dairələr arasında mübarizə

### Məqsəd daxili güc toplamaqdır

Avropa İttifaqının siyasi gündəmində avropalı parlamentarilərin qanunsuz əməlləri ilə bağlı yeni məlumatlar ortalığa çıxıb. Belə ki, Avropa Parlamentində radikal sağ qüvvələri birləşdirən sabiq "İdentiklik və Demokratiya" (ID) fraksiyasının parlament tərəfindən həvalə edilmiş milyonlarla avroluq vəsaiti qanunsuz şəkildə xərclədiyi iddiası yeni qalmaqala səbəb olub. Almaniyanın "Tagesschau" xəbər agentliyinin məlumatına görə, ARD kanalının "Kontraste" proqramının, "Die Zeit", "Le Monde" və "Falter" qəzetlərinin daxil olduğu beynəlxalq araşdırma qrupunun 29 səhifəlik hesabatında qeyd olunur ki, "İdentiklik və Demokratiya" fraksiyasının deputatları 2019-2024-cü illərdə Avropa Parlamentindən aldığı 4,3 milyon avroluq vəsaiti hüquqa zidd şəkildə istifadə edib. Ötən ilin yayında özünü buraxan fraksiyanın tərkibində Avstriyanın Azadlıq Partiyası (FPÖ), Fransanın "Rassemblement National" partiyası və "Almaniya üçün Alternativ" (AfD) partiyası yer alıb. Sözügedən sənəddə vurğulanır ki, ID fraksiyası müxtəlif təşkilatlara Avropa İttifaqının fəaliyyət sahəsinə uyğun gəlməyən qanunsuz ianələr ayırıb - fraksiyanın üzvləri həmin vəsaitin bir hissəsini dini və ideolojiyönümlü qurumlara, o cümlədən fraksiyaya yaxınlığı ilə tanınan şəxslərlə əlaqəli təşkilatlara ayırıb. Eyni zamanda, tender qaydalarına əməl olunmadan müxtəlif şirkətlərə iri məbləğli sifarişlərin verilməsi, süni qiymət artımı və şəffaf olmayan razılaşmalarla bağlı ittihamlar da sənəddə yer alıb. Bütün bu məlumatlara yanaşı, hesabatda 3 milyon avrodan çox vəsaitin qanunsuz şəkildə xidmət müqavilələrinə xərcləndiyi, o cümlədən Avstriyadakı ifrat sağçı "Zur Zeit" həftəlik qəzetinə 2019-2024-cü illərdə 600 avroluq reklam və əlavələr üçün vəsait ödənildiyi də qeyd olunub. ID fraksiyasının keçmiş baş katibi Filip Kleyz hesabatdakı ittihamları rədd edib və bildirib ki, fraksiyanın maliyyə hesabatları hər il həm xarici auditorlara, həm də Avropa Parlamentinin aidiyyatı qurumuna təqdim olunub.

### Məsələyə Avropa Prokurorluğu da qarışacaq

Xristian Demokratlar İttifaqının (CDU) Avropa Parlamentindəki üzvü və Büdcə nəzarəti komitəsinin rəhbəri Niklas Herbst vəsaitlərin geri qaytarılmalı olduğunu və Avropa Prokurorluğuna (EPPO) rəsmi şikayətin təqdim ediləcəyini bildirib. Prosesə Avropa Komissiyasının dələduzluqla mübarizə üzrə Avropa bürosunun (OLAF) da cəlb olunması gözlənilir. Fraksiyanın şübhəli ianə praktikasının 2019-cu ildən əvvəl də mövcud ola biləcəyi iddia edilir. Hesabatın bütün ödənişləri tam şəkildə əhatə etmədiyi nəzərə alınaraq, 4,3 milyon avroluq məbləğin daha da arta biləcəyi ehtimal olunur. Bu məsələ Avropa Parlamentinin tarixində ən ciddi maliyyə qalmaqallarından biri hesab edilir.

### Məqsəd öz elektoratını artırmaqdır

Məsələ ilə bağlı politoloq Asif Nərimanlı "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Avropalı parlamentarilərin korrupsiya və digər qanunsuz əməlləri ilə bağlı məlumatların ortya çıxması təəccüblü görünmür. O, bildirib ki, Avropa Parlamenti daxil olmaqla Avropa İttifaqının bütün strukturlarında korrupsiya halları baş verir. "Avropa Parlamentinin üzvləri hər zaman lobbiçilik üzərində böyük pullar qazanıblar. Onların lobbiçilik fəaliyyəti AP-də bu günə qədər qəbul olunan qətnamələrə və qərarlara, o cümlədən Aİ-nin xarici siyasət kursuna öz təsirini göstərib. Ötən il Avropa Parlamentində siyasilərin və deputatların lobbiçilik fəaliyyətinin məhdudlaşdırılması barədə məsələ qaldırılmışdı," - deyən A.Nərimanlı vurğulayıb ki, ultra-sağçı parlamentarilərin qanunsuz əməllərində iki əsas məqama diqqət yetirmək lazımdır: "Ola bilsin ki, Avropa media qurumlarının bu məlumatları bir az şişirdilib. Amma Avropa parlamentarilərin əməllərində korrupsiya və digər qanunsuz halların olması istisna deyil. Ultra-sağçılar da buna meyl göstəriblər. Bu məsələ gündəmə gəlməmişdən əvvəl də qatı sağçı deputatların onlara ayrılan maliyyə vəsaitin təyinatdan kənar sahələrə xərcləməsi ilə bağlı iddialar var idi. Onlar öz ölkələrində yerli əhali arasında öz elektoratını artırmaq və seçicilərin dəstəyini qazanmaq üçün maliyyə vəsaitlərinin xərclənməsində qanuna zidd əməllərə yol veriblər. Ümumiyyətlə, ultra-sağ və ultra-sol meyilli partiyaların büdcəsi hər zaman zəif olub. Həmin partiyalar adətən öz ianələri hesabına özlərini maliyyələşdirirlər. Avropada uzun müddət liberal düşüncə hakim olduğundan biznes dairələri əsasən liberal iqtisadiyyat xəttini dəstəkləyən sağmərkəzçi, sol-mərkəzçi və mərkəzçi partiyaları dəstəkləyiblər. Bu siyasət davam etməkdədir,". A.Nərimanlı əlavə edib ki, Avropada liberal və ultra-sağ düşüncəli dairələr arasında ciddi mübarizə gedir. "Son üç-dörd il ərzində Aİ-nin bir çox üzv ölkələrində baş tutan bütün seçkilərdə qatı sağ yönümlü qüvvələr öz mövqelərini daha da gücləndirdilər. Bu isə liberal dairələri ciddi narahatlığa qərq edib. Böyük ehtimalla, ultra-sağçı parlamentarilərin qanunsuz maliyyə xərcləri ilə bağlı yayılan məlumatlar liberal dairələr tərəfindən təşkil olunub. Məqsəd də sağ cəbhənin nüfuzuna ağır zərbə vurmaqdır".



### Aİ-nin resurslarından yararlanan oyunçular

Politoloq Tural İsmayilov qəzetimizə şərhində bildirib ki, ultra-sağçı partiyalar Aİ-ni "bürokrat cəngəlliyi" kimi təqdim etsələr də, eyni sistemin maliyyə imkanlarından yararlanmaqda maraqlıdırlar. "Həmin partiyalara ayrılan vəsaitin şübhəli xərclənməsi bu qüvvələrin əslində sistemin tənqidçisi yox, içindəki resurslardan maksimum faydalanmağa çalışan oyunçular olduğunu göstərir. Avropa strukturlarına qarşı olan ritorika isə əsasən daxili auditoriyanı manipulyasiya etməyə hesablanıb. Onlar üçün Aİ-yə daxil olmaq, bir növ, "resurslara giriş kartıdır", ideoloji inam isə arxa plandadır. Dini təşkilatların və qaranlıq biznes çevrələrinin bu prosesdə vasitəçi kimi istifadəsi bir neçə məqsədə xidmət edir. Birincisi, bu kanallar vasitəsilə vəsaitlərin izini itirmək asanlaşır. İkincisi, bu qurumlar vasitəsilə həm elektoratla daha emosional rabitə qurulur, həm də alternativ informasiya kanalları yaradılır. Sağçı populistlər üçün kilsə və dini fondlar sosial mobilizasiyanın rıçaqları kimi çıxış edir. Eyni zamanda, biznes strukturlarından istifadə həm maliyyə təminatı, həm də media sahəsində təsir gücünün artırılmasına yönəlib. Vəsaitlərin məqsədyönlü şəkildə xərclənməsi əvəzinə siyasi təbliğata yönəldilməsi isə vətəndaşların real problemlərinin arxa plana keçməsinə səbəb olur. Beləliklə, bu qüvvələrin əsas məqsədi Aİ-ni dəyişməkdən çox, onun zəifliklərindən istifadə edərək daxildə güc toplamaqdır". T.İsmayilov, həmçinin qeyd edib ki, sağ-populistlərin korrupsiya bataqlığına batması onların da digər sistem partiyalarından maliyyət etibarilə fərqlənmədiyini göstərir. "Bu proses Avropada liberal dəyərlərə inamın zəifləməsinə səbəb olmaqla bərabər, geosiyasi parçalanma risklərini də artırır. Və nəhayət, bu korrupsiya faktları, onların, əslində, hansı ideologiyadan daha çox hansı strukturlar üçün işlədiklərini açıq şəkildə ortaya qoyur".

*Yunis ABDULLAYEV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Yay üçün qeyri-xarakterik hava...

## Havanın sərin keçməsinin səbəbi nədir?

Ötən ay bir neçə il əvvəlki iyun ayları ilə müqayisədə nisbətən sərin keçdi. İyun ayının davamı olaraq iyul ayında da sərin hava müşahidə edilir. Məlumdur ki, normadan artıq sərin, külək və yağışlı havanın müşahidə edilməsi iyul ayı üçün xarakterik deyil. Ölkəmizdə son günlər havanın sərin keçməsinin səbəbləri isə müxtəlif amillərlə əlaqələndirilir.

## Ötən illə müqayisədə temperatur 3-8 dərəcə aşağı olacaq

Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, iyul ayının birinci 10 günlüyünün sonlarınadək ölkə ərazisində hava şəraitinin mülayim keçəcəyi, bəzi bölgələrdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Yağıntıların əsasən dağlıq və dağətəyi rayonlarda qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var.

Qeyd edək ki, bu ilin may ayında havanın orta aylıq temperaturu iqlim normasından 2 dərəcə, iyun ayında 1 dərəcə yuxarı olub. İyul ayının birinci ongünlüyündə isə temperaturun normaya yaxın olacağı proqnozlaşdırılır.

İyul ayının birinci 10 günlüyündə havanın maksimal temperaturunun ötən ilin müvafiq dövrü ilə müqayisədə 3-8 dərəcə aşağı olacağı qeyd edilib. Belə ki, ötən ilin iyul ayının birinci 10 günlüyündə Bakıda və Abşeron yarımadasında 38, bölgələrdə 40 dərəcəyədək isti müşahidə edilmişdisə, bu ilin müvafiq dövründə Bakıda və Abşeron yarımadasında 30-33, bölgələrdə isə 35 dərəcəyə yaxın isti olacağı ehtimal olunur.

## Havanın sərin keçməsi uzun çəkməyəcək...

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən ekoloq Rövşən Abbasov bildirib ki, iyulun ilk 10 günlüyündə temperaturun aşağı düşməsi müşahidə edilsə də, bu ay isti günlərin sayının çox olacağı gözlənilir: “İyunda temperaturun nisbətən aşağı olmasını baza dövrü, yəni 1961-1990-cı illərlə müqayisə etdikdə, çox da aşağı olmadığını görürük. 1990-cı ildən sonrakı dövrə nəzər salsaq, həmin dövrlərlə müqayisədə temperatur nisbətən aşağı olub. Buna səbəb isə lokal iqlim dəyişmələri, atmosfer dövranı, şimaldan və şimal-şərqdən Azərbaycana daxil olan hava kütlələrinin təsiridir. Ümumiyyətlə, şimaldan daxil olan hava kütləri yayda nisbətən sərinlik, qışda sərtlik gətirir. Ümumi götürdükdə isə belə sərin havaların o qədər də uzun çəkməyəcəyini deyə bilərəm”.

## Əsas səbəb iqlim dəyişmələridir

Ekoloq qeyd edib ki, yay aylarında temperaturun aşağı olması iqlim dəyişmələrinin bir növüdür: “Yəni iqlim dəyişmələri dedikdə təkcə temperaturun qalxması deyil, enməsi də nəzərdə tutulur və yaxud da yağıntıların azalması, çoxalması və s. İyun ayı əsasən sərin keçsə də, isti hava da müşahidə edildi. Amma bir neçə il bundan əvvəllə müqayisədə həmin isti havanın əvvəlki illərdə daha uzun müddət davam etdiyini görmüşük. İndi isə sərin günlərin sayı nisbətən artıb, isti günlərin sayı azalıb. Bu da elə iqlim dəyişmələrinin bir təzahürüdür”.

R.Abbasovun sözlərinə görə, bu ilin iyun ayının əvvəlində Şahdağa qar yağıb, havanın minimal temperaturu 1 dərəcə şaxta təşkil edib. Bakı və Abşeron yarımadasında isə minimal temperatur 16 dərəcə isti olub. O, qeyd edib ki, ölkə ərazisində son 5 ildə iyun ayında havanın orta aylıq temperaturu iqlim normasından 2-4 dərəcə yuxarı olub: “Çoxillik müşahidə məlumatlarına əsasən, ən isti iyun ayı 2021-ci ildə qeydə alınıb. Həmin il havanın maksimal temperaturu Bakı və Abşeron yarımadasında 41, bölgələrdə isə 43 dərəcəyədək yüksəlib”.

## Ən isti iyun ayı 2021-ci ildə olub

## Havada çirklənmənin artması

Ekoloq son günlər havanın çirklənməsi ilə bağlı da fikirlərini bölüşüb. Onun sözlərinə görə, atmosferi çirkləndirən maddələr nəinki insanlara, ekosistemə də mənfi təsir göstərir: “Havaya qarışan çirkləndirici maddələr isə müvafiq olaraq kükürd-dioksid, hidrogen-sulfid, karbon-monoksit, azot oksidləri və digər hissəciklərdir. Xüsusilə, son 100 ildə mineral yanacaqların həddindən artıq istifadəsi, istehsal və istehlakın artması atmosferi çirkləndirməyə davam edir. Hava çirkliliyi ciddi xəstəliklərə yol açmaqla yanaşı, miqren kimi xroniki və nevroloji xəstəlikləri olan şəxslərə təsir edir. Bundan başqa, son zamanlar ağ ciyər xəstəliklərinin yaranmasının əsas səbəbi kimi orqanizmə daxil olan hava kütləsinin zəhərli olmasıdır. Çirklənmənin artması, eyni zamanda, havanın temperaturunun normadan çox olmasına da səbəb olur”.

*Yeganə BAYRAMOVA*

# Düzgün seçim edin!

Yay mövsümünü kiçikdən-böyüyə hər kəs səbirsizliklə gözləyir. Xüsusilə, bu aylarda insanlar istirahətə önəm verir, isti havalarda dənizə girərək sərinlənir və çimərliklərdə asudə vaxt keçirirlər. Lakin əyləncə və istirahətimizin xoş bitməsi üçün təhlükəsizliyimiz çox önəmlidir. Buna görə nəzarətsiz çimərliklərdən istifadə etməməli, eyni zamanda dəniz suyunda mikrobioloji çirklənmə səviyyəsi yüksək olan ərazilərə üz tutmamalıyıq.

## Əhaliyə mühüm müraciət...

Fövqəladə Hallar Nazirliyi (FHN) qeyri-çimərlik ərazilərdən istifadə ilə əlaqədar əhaliyə müraciət edib.

Sözügedən müraciətdə deyilir ki, FHN tərəfindən aparılan kütləvi maarifləndirmə işlərinə baxmayaraq, yenə də bəzi vətəndaşlar, o cümlədən, uşaq və yeniyetmələr tərəfindən çimərlik kimi nəzərdə tutulmayan kanal, çay, arx, süni göl və digər su hövzələrindən çimərlik kimi istifadə faktlarına rast gəlinir. Bu da bir sıra hallarda acı nəticələrə gətirib çıxarır. Belə ki, yalnız son 2 həftə ərzində bu kimi qeyri-çimərlik ərazilərdə 7 nəfərin batması faktı qeydə alınıb.




## FHN nələri tövsiyə edir?

Qeyd olunanlarla bağlı FHN bir daha əhaliyə, xüsusilə, valideynlərə müraciət edərək, uşaq və yeniyetmələrin nəzarətsiz qoyulmamasına, müvafiq təhlükəsizlik qaydalarına ciddi əməl edilməsinə və çimərlik kimi nəzərdə tutulmayan su hövzələrindən istifadə olunmamasına çağırır.

## Ölümlərin 98 faizindən çoxu nəzarətsiz çimərliklərdə baş verir

Mövzu barədə fikirlərini “Yeni Azərbaycan”la bölüşən təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev bildirib ki, çimərlik mövsümü başlamadan əvvəl müvafiq qurumlar dəniz sahillərində monitorinq aparırlar: “Hər il bu çimərliklərin siyahısı kütləvi informasiya vasitələrində dərc olunur. İcazəsiz fəaliyyət göstərən çimərliklər insan həyatı üçün risklidir. Vətəndaşlar yalnız icazə verilmiş çimərliklərə üz tutmalıdır. Çünki bu ərazilərdə xilasetmə xidməti mövcuddur və çimmək daha təhlükəsiz sayılır. FHN-in tabeliyində olan Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin məlumatına əsasən, onların nəzarətində olan ərazilərdə indiyədək bir nəfər belə boğulma halı qeydə alınmayıb. Əlverişsiz hava şəraitində və ya sərxoş vəziyyətdə çimərliyə getmək təhlükəlidir. Əgər küləyin sürəti saniyədə 10-12 metrə çatarsa, dənizə getmək planı təxirə salınmalıdır. Çünki dünya statistikası göstərir ki, boğulma hallarının 70 faizindən çoxu məhz hava şəraiti ilə əlaqəlidir. Bütün ölkələrdə çimərliklərdə təhlükəsizliyi təmin etmək məqsədilə tədbirlər gücləndirilir. Hər il dünya üzrə 400 minə yaxın insan suda boğularaq həyatını itirir. Bu ölümlərin 98 faizindən çoxu qeyri-rəsmi, nəzarətsiz çimərliklərdə baş verir”.

Ekspert əlavə edib ki, çimərlik sahəsi olan istənilən istirahət məkanında xilasetmə xidməti mütləq şəkildə fəaliyyət göstərməlidir: “Çimərliyin dövlətə və ya özəl şəxsə aid olması önəmli deyil. Hər iki halda sahilboyu ərazisi 100 metr olan çimərliklərdə ən azı bir, 200 metrlik sahələrdə isə iki xilasetmə heyəti fəaliyyət göstərməlidir. Təbii ki, bu xilasetmə xidmətinin sertifikasiyası da olmalıdır. Onlar ilkin tibbi yardım və xilasetmə üzrə təlimlərə qatılır, kifayət qədər təcrübəyə malik olurlar. Çimərlik sahibləri ərazidə təhlükəsizlik qaydalarını əks etdirən məlumat lövhələri yerləşdirməlidirlər. Eyni zamanda, üzmə sərhədlərini göstərən nişanlar quraşdırılmalıdır”.

Qeyd edək ki, paytaxtın Şıx, Görədil, Novxanı, Buzovna, Pirşağı və Sahil qəsəbələrində baxımsız sahilyanı ərazilərdə yaradılan pulsuz ictimai çimərliklərdə təmizlik, abadlıq və digər hazırlıq işləri başa çatdırılıb və bu məkanlar çimərlik mövsümünə tam hazır vəziyyətə gətirilib. Hazırda FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti, ümumilikdə, 75 çimərliyə nəzarət edir. Çimərlik mövsümü sentyabrın 15-də başa çatacaq.

## Təhlükə yaradan hallar

Nəzərə alınmalıdır ki, çimərlik üçün nəzərdə tutulmayan kanal, arx, çay, göl və digər su hövzələrinin təhlükəli sualtı relyefə, sürətli axına, qeyri-müəyyən dərinliyə, məhdud görüntü və digər təhlükəli xüsusiyyətlərə malik olması həmin hövzələrdən yayda sərinləmək məqsədilə istifadə zamanı həyat və sağlamlıq üçün ciddi təhlükə yaradır.

*Yeganə BAYRAMOVA*



## Bakıda daha bir avarçəkmə yarışı keçiriləcək




Bakı Şəhər Gənclər və İdman İdarəsi ilə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının (AKAF) təşkilatçılığı əsasında avarçəkmə üzrə açıq Bakı çempionatı keçiriləcək.

AKAF-dan AZƏRTAC-a verilən məlumata görə, yeniyetmə və gənc idmançıların iştirakı ilə təşkil olunacaq yarışda Bakı və Mingəçevirdən ümumilikdə 100-ə yaxın avarçəkən iştirak edəcək.

Reqlamentə əsasən, açıq Bakı çempionatında idmançılar akademik avarçəkmə və 1 nəfərlik kanoe qayığında 500 metr məsafə üzrə mübarizə aparacaqlar. Avarçəkənlər 500 metr məsafədə həm 1 nəfərlik, həm də 2 nəfərlik kanoe qayığında da çempionluq uğrunda yarışacaqlar.

Qeyd edək ki, Bakı çempionatı iyulun 11-də təşkil olunacaq.

## Azərbaycan millisinin baş məşqçisi: “Ermənistan üzərində qələbə çox gözəl oldu”

Çimərlik voleybolu üzrə 18 yaşadək oğlanlardan ibarət Azərbaycan millisinin baş məşqçisi Atvars Vilde komandanın Şərqi Avropa Voleybol Zonal Assosiasiyasının (EEVZA) çempionatındakı çıxışını dəyərləndirib.

Latviyalı mütəxəssis bu barədə “Report”a açqlama verib.

O, turnirdəki məqsədlərindən danışıb:

“Əla turnir oldu və çoxlu oyunlar keçirdik. Əsas məqsədimiz hər xal uğrunda mübarizə aparmaq idi. Və biz bunu etdik, bu da o deməkdir ki, set və oyun qazana bilərik. Komanda olaraq necə inkişaf etdiyimizi görmək məni həqiqətən sevindirir. Mənim üçün ən vacibi də budur. İşimizə davam edirik və bu turnir göstərdi ki, biz düzgün yoldayıq”.



Baş məşqçi komandaya daha çox təcrübə lazım olduğunu söyləyib:

“Qrup oyunları və pley-off fərqlidir, indi hər oyunda ən yaxşı performansımızı göstərməliyik. Bunu da etdik. Zəhmətimiz bəhrə verir. Bizə, sadəcə, daha çox təcrübə lazımdır və bəlkə növbəti dəfə ilk “4-lük”də olarıq. Latviyanın ikinci komandasına qalib gəlsək də, birinci heyətinə uduzduq”.

U-20 yığmasına da rəhbərlik edən baş məşqçi bu komandaların yarışında Ermənistan üzərində qələbəni xüsusi qeyd edib:

“Ermənistan üzərində qələbə çox gözəl oldu. Çünki bu, Azərbaycan komandası ilə rəsmi Avropa turnirində qazandığım ilk qələbə idi. Ona görə də çox önəmli idi və biz gücümüzü göstərməliyik”.

O, qarşıdakı planlardan da danışıb:

“Azərbaycan, həmçinin U-18, U-20 və U-22 Avropa çempionatlarına hazırlaşacağıq. İndi bir neçə gün istirahət vaxtıdır və daha sonra yenilənmiş beyinlə geri dönəcəyik”.

Qeyd edək ki, A.Vildenin rəhbərlik etdiyi U-18 millimiz EEVZA çempionatını beşinci pillədə başa vurub.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 3694**
**Sifariş: 1381**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova